www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18 sentyabr 2014-cü il Cümə axşamı № 233 (5942) Qiyməti 40 qəpik

**Xəbər**

## Fransa küçələrində "Hafiz məni öldürdü" şüarları

yazısı səh.2-də

**Gündəm**

## Ölkə müxalifəti geniş konfrans keçirdi



Tədbirdə ölkədəki demokratik mühit, cəmiyyət-müxalifət münasibətləri müzakirə edildi; repressiyalarla bağlı bəyanat verildi və narahatlıq dolu qətnamə qəbul edildi

yazısı səh.5-də

*İlham Şaban:*

## "Türkiyə ilə Azərbaycanın uğurlu enerji layihələrinə zərbə vurmaq istəyənlər var"

yazısı səh.7-də

## KXCP-Milli Şura münasibətləri gərginləşdi

yazısı səh.6-da

## Azərbaycan ordusu milli yeməklərə keçir

yazısı səh.15-də

## Müsavat meriyanın ayırdığı yerdən imtina edə bilər

Səbəb icarə haqqının çox baha olmasıdır

yazısı səh.6-da

## Yaxın Şərq yeni savaşın astanasında

Amerikanın mübhəm "Halliburton" şirkətinin bu bölgədə görünməsi nəyə işarədir?

yazısı səh.10-da

## "İsmayıllı işi"nin apelyasiya prosesində maraqlı gəlişmə

Hakim idarə müdirinin məhkəməyə məcburi gətirilməsi haqda qərar qəbul etdi

yazısı səh.2-də

## "Səni axtarıram"a baxarkən dünyasını dəyişən kababçının hekayəsi

yazısı səh.12-də

## Alqış Həsənoğlu qəzetlərdəki başsağlıqlarına qarşı çıxdı

yazısı səh.3-də

## Rusiya və Qərb arasındakı gərginlik Minsk Qrupunu iflic edib

yazısı səh.13-də

## "The New York Times"də Qarabağ mübahisəsi

yazısı səh.9-da

**Məmmədovların ailə biznesinə görünməmiş zərbə**

# ANAR MƏMMƏDOVUN ŞİRKƏTİNİN LİSENZİYASI LƏĞV EDİLDİ

Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi "Qarant İnvest"in broker fəaliyyətinə qadağa qoydu; ölkənin ən qüdrətli nazirlərindən birinin oğlunun xarici bazarı bağlandı; hökumətin bu addımı haqda sensasion iddialar "Yeni Müsavat" da



Ziya Məmmədov



Anar Məmmədov

yazısı səh.8-də

# Sabiq rəisin Türkiyədə qətl törətdiyi xəbəri yayıldı - şok

Təqaüddə olan polis polkovniki Rza Hacıyevin "AST Telman"ın "Mardan Palase" hotelində 24 yaşlı xanımı döyərək öldürdüyü deyilir

yazısı səh.3-də



## "Şərurlu İsfəndiyar"ın oğlunun 650 minlik avtomobili var

yazısı səh.2-də



## Elmar Vəliyevin "sağ əli"nin həbsinə hazırlıq görülür

yazısı səh.3-də



## Aqil M.Quliyevdən əmisi Eldəniz Quliyevə ittihamlar

yazısı səh.2-də

YENİ MÜSAVAT
N 233 (5942) 18 sentyabr 2014



## Azay Quliyev fəlsəfə doktoru elmi adı aldı

**Azərbaycan Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri, millət vəkili, ATƏT Parlament Assambleyasının Siyasi Məsələlər və Təhlükəsizlik Komitəsinin sədr müavini Azay Quliyev siyasi elmlər üzrə fəlsəfə doktoru elmi adını alıb.**

«Trend»in məlumatına görə, "Qeyri-Hökumət Təşkilatlarının ictimai-siyasi sistemdə yeri: milli və beynəlxalq təcrübə" adlı dissertasiya QHT sahəsində ilk doktorluq işidir.

Tədqiq olunan mövzunun aktuallığını şərtləndirən amillərdən biri Azərbaycan siyasi elmi çərçivəsində vətəndaş cəmiyyətinin vacib tərkib hissəsi olan QHT-lərin inkişaf dinamikasının araşdırılmasının xüsusi əhəmiyyət daşımasıdır. Müasir Azərbaycan siyasi elmində QHT institutlarının yeri və rolunun beynəlxalq təcrübə müstəvisində öyrənilməsi, milli təcrübənin təhlili vacib və aktual problemlərdəndir. Tədqiqatda xarici ekspertlərin və eyni zamanda MDB məkanı tədqiqatçılarının əsərlərinə müraciət edilib, təhlillərə müəllifin əlavələri olub. Tədqiqat işinin elmi yeniliyi opponentlər tərəfindən vurğulanıb.

Qeyd edək ki, A.Quliyev 1971-ci il iyunun 23-də anadan olub. Evlidir, 3 övladı var. Otuzdan çox elmi məqalənin müəllifidir. İngilis, rus və türk dillərini bilir. Heç bir siyasi partiyanın üzvü deyil.

## Rayon maşınları Bakıya buraxılmayacaq

**Bakının mərkəzində nəqliyyat sıxlığını azaltmaq məqsədilə şəhərətrafı dayanacaqlardan geniş şəkildə istifadə olunacaq. APA-nın verdiyi məlumata görə, nəqliyyat nazirinin müavini Musa Pənahov 2015-ci ildə Bakıda keçiriləcək I Avropa Oyunları ilə əlaqədar hazırlanan geniş tədbirlər planında belə nəzərdə tutulduğunu deyib.**

"Çalışacağıq ki, ölkənin başqa rayon və şəhərlərindən gələn vətəndaşlar nəqliyyat vasitələrini mümkün qədər çox şəhərətrafı dayanacaqlarda saxlasınlar. Sərnişinlərin şəhər nəqliyyatı və metrodan istifadə etməklə şəhərin mərkəzi hissələrinə getməsi təmin olunacaq. Bundan başqa, onlara oyunları ziyarət etmək üçün şərait yaradılacaq"- deyə M. Pənahov bildirib.

Nəqliyyat nazirinin müavini qeyd edib ki, I Avropa Oyunları ilə bağlı nazirliyin geniş proqramı var. M.Pənahov əlavə edib ki, proqramda nəqliyyat sahəsi ilə bağlı bütün məsələlər I Avropa Oyunlarına qədər həll olunacaq.

## Zakir Qaralov Tapdıq Fərhadoğlunun işini nəzarətə götürdü

**Baş Prokurorluq jurnalist Tapdıq Fərhadoğlunun döyülməsi faktı üzrə araşdırmaların qeyri-obyektiv aparılması barədə mətbuatda yayılan xəbərlərə münasibət bildirib. Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov APA-ya açıqlamasında qeyd edib ki, jurnalist Tapdıq Fərhadoğlunun döyülərək xəsarət alması ilə bağlı Yasamal Rayon Prokurorluğuna etdiyi müraciət üzrə araşdırmanın qeyri-obyektiv aparılması barədə kütləvi informasiya vasitələrində dərc edilmiş məqalədə göstərilənlərlə əlaqədar araşdırma baş prokuror Zakir Qaralov tərəfindən nəzarətə götürülüb.**

Müraciətdə qeyd edilən xüsusatların tam, hərtərəfli və obyektiv araşdırılmaqla qanunamüvafiq qərarın qəbul edilməsi barədə göstəriş verilib.

Qeyd edək ki, "Amerikanın səsi" radiosunun əməkdaşı Tapdıq Fərhadoğlu fevralın 20-də tələbələrin Bakı Dövlət Universiteti qarşısında etiraz aksiyasını işıqlandırdığı zaman universitetin mühafizə xidmətinin rəhbəri Mahir Höcətov tərəfindən döyüldüyünü iddia edir.


## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- ➔ Ali məktəblər xarici dillər
- ➔ kompyuter kursları
- ➔ Magistratura - dövlət qulluğu - məntiq
- ➔ 1.C. mühasibat - anbar - bank işi
- ➔ Məktəbə qədər həftədə 5 dəfə
- ➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


## "İsmayıllı işi"nin apelyasiya prosesində maraqlı gəlişmə

### Hakim idarə müdirinin məhkəməyə məcburi gətirilməsi haqda qərar qəbul etdi



**Sentyabrın 17-də Şəki Apelyasiya Məhkəməsində "İsmayıllı işi" məhkəməsinin apelyasiya şikayəti üzrə növbəti proses keçirildi.**

Məhkəmə hakimin vəkillərin mantiya geyinməsini təqdirəlayiq sayması ilə başladı. Sonra ötən məhkəmə iclasında baxılmamış vəsatətlərə yenidən baxdı. Hakim adı işdə şahid kimi keçən İsmayıllı Elektrik Təchizatı və Satışı İdarəsinin rəisi Əliağa Bədəlovun xəstə olduğu üçün məhkəməyə gələ bilmədiyini bildirdi. Müttəhim Anar Həsənli isə replika verərək "necə xəstədir ki, hər gün işə gedir" dedi. Vəkillər təklif etdilər ki, Ə.Bədəlova zəng edib onu prosesə çağırsınlar.

Bu zaman Tofiq Yaqublu "Xoşqədəmi çağırın, onu gətirsin" replikasını verdi. Müttəhimlərin və onların vəkillərinin israrlarından sonra hakim Əliağa Bədəlovun məhkəməyə məcburi gətirilməsi barədə qərar qəbul etdi.

İsmayıllı məhbusu Şükran Möhübəliyev İsmayıllı Polis İdarəsinin rəisi Nizami Qocayevin də prosesə gətirilməsi ilə bağlı vəsatət verdi. Dövlət ittihamçısı isə onun gəlməyinin nəyi dəyişəcəyini bildirdi. Şükran "imkan verin gəlsin, bəlkə sizin xeyrinizə danışacaq" - dedi.

Hakim müttəhim Vasif İbrahimovun ANS telekanalının işçilərinin şahid kimi məhkəməyə gətirilmələri ilə bağlı vəsatətini təmin etdi.

Prosesdə həmçinin işlə bağlı videoçəkilişlər nümayiş olundu. Obyekriv TV-nin İsmayıllı hadisələri ilə bağlı çəkdiyi süjetə baxıldı. Bu zaman süjetlə Tofiq Yaqublunun verdiyi ifadələrin üst-üstə düşdüyü aydın göründü.

**Tofiq Yaqublu:**

- Axı siz nə istəyirsiniz? 26 cild niyə yalan yazırsınız?

**İlqar Məmmədov hakimdən söz istəyərək dedi:**

- Birinci instansiya məhkəməsinin 135 gündə 17 məhkəmə prosesi oldu və bu müddət ərzində hökm də oxundu, ancaq 117 gündə apelyasiya məhkəməsi hələ də bitməyib.

**Proses sentyabrın 18-də davam edəcək.**

❑ **Xəbər Xidməti**



## Hüseynov qardaşlarından hələ də xəbər yoxdur

### Fariz Namazlı: "Əgər müvəkkilim barəsində həbs-qətimkan tədbiri seçilibsə, bunu bilməliyəm"

**Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutunun (RATİ) direktoru Emin Hüseynovun taleyi hələ də naməlum olaraq qalır. İki həftədən çoxdur barələrində heç bir məlumat olmayan bu şəxslər barədə son xəbərləri öyrənmək üçün E.Hüseynovun vəkili Fariz Namazlı ilə əlaqə saxladıq.**

"Vəkili olsam da özüm belə bilmirəm Emin Hüseynov hardadır" - deyən, F.Namazlı bunları söylədi: "Onun barəsində hansı maddələrlə iş başladıldığını da bilmirəm. Heç bir informasiyaya malik deyiləm. Bu barədə istintaq mənə nəsə açıqlamayıb. İndi Nəsimi Rayon Məhkəməsinə rəsmi müraciət göndərmişəm. Əgər müvəkkilim barəsində həbs-qətimkan tədbiri seçilibsə, bunu bilməliyəm. Bir də RATİ-nin ofisində axtarış aparıldıqdan sonra ofisin möhürlənməsinin nəyə əsaslandığını öyrənmək üçün istintaqa məktub göndərmişəm".

**Amerika səfirliyinin E.Hüseynovla bağlı açıqlamasından sonra beynəlxalq təşkilatlardan, yaxud səfirliklərdən hansınınsa F.Namazlı ilə əlaqə saxlayıb-saxlamadığını soruşduqda bunu bildirdi:** "Heç bir səfirlik, şəxs tərəfindən mənə əməkdaşlıq təklif olunmayıb. Nə də müraciət olunmayıb".

Qeyd edək ki, ABŞ-ın Azərbaycandakı səfirliyi RATİ-nin rəhbəri Emin Hüseynovun səfirlikdə gizlənməsi barədə yayılan məlumatlara aydınlıq gətirərək bu xəbərin həqiqətə uyğun olmadığını bildirmişdi.

❑ **Fəridə ABDIYEVA**



## "Şərurlu İsfəndiyar"ın oğlunun 650 minlik avtomobili var

### Allahverdi Axundovun bahalı maşınının fotoları yayıldı



**Dünən Dövlət İqtisad Universitetinin yaxınlığında görünən bir avtomobil ərazidə olan şəxslərin diqqətini cəlb edib. Avropa.info-nun verdiyi xəbərə görə, yaxınlıqda olan şəxslər bu maşının unversitet tələbələrindən birinə aid olduğunu bildiriblər.**

Dövlət İqtisad Universitetinin yaxınlığında görünən və qiyməti 650 min ABŞ dolları civarında qiymətləndirilən avtomobilin sahibi bəlli olub.

Bəlli olub ki, avtomobil "Şərur" MTK-nın sədri "Şərurlu İsfəndiyar" kimi tanınan iş adamı İsfəndiyar Axundovun oğlu Allahverdi Axundova məxsusdur. A.Axundov isə Dövlət İqtisad Universitetinin tələbəsidir.

"Şərurlu İsfəndiyar" bizimyol.info-ya açıqlamasında "Mənim oğlumun elə maşını yoxdur, bu barədə sizdən eşidirəm" deyib. O bildirib ki, internet saytlarında 650 min dollarlıq "Lamborghini" avtomobilinin onun oğluna məxsus olması barədə yazılanlar həqiqətə uyğun deyil.

Ancaq maraqlıdır ki, A. Axundov İnstaqram səhifəsində həmin maşının fotosunu paylaşaraq, "My new car, lambo#aventador" haştagından istifadə edib.

Avropa.info saytı "Şərurlu İsfəndiyar"ın oğlu, sözügedən avtomobilin sahibi Allahverdi Axundovun İnstaqram səhifəsindəki fotolarını yayıb.

Qeyd edək ki, 2005-ci ildə İ.Axundovun digər oğlu - Şahin Axundov Bakıda avtomat silahdan atəş açaraq Anar İsmayılov adlı şəxsi yaralamışdı. O, bir müddət həbsdən yayınsa da, sonradan tutuldu və 1 ildən çox həbsxanada yatdı.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**


## Aqil M.Quliyevdən əmisi Eldəniz Quliyevə ittihamlar

**Daxili işlər naziri Ramil Usubovun Ziyalılar Birliyinin sədri, Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü Eldəniz Quliyevi məhkəməyə verməsi xəbəri xeyli müzakirələrə səbəb olub. Maraqlıdır, E.Quliyevin qardaşı oğlu tanınmış rejissor Aqil M.Quliyev əmisini bu durumda müdafiə edəcəkmi?**

"Bizim ailələr arasında elə vəziyyət olub ki, uşaqlıqdan onunla münasibətim yoxdur" - deyən, A.M.Quliyev özünün siyasi baxımdan bitərəf mövqedə olduğunu söylədi. Heç bir partiyaya mənsubluğunun olmadığını vurğulayan rejissor bütün münaqişələrdən maksimum kənar qalmaq niyyətində olduğunu dedi: "Bu, Eldənizin şəxsi işidir. Zənnimcə, insan etdiyi hərəkətlərə, dediyi sözlərə görə özü məsuliyyət daşıyır. Bizim ailədə heç bir ünsiyyət yoxdur. Anam arada bir onun həyat yoldaşı Xalidə xanımla danışır. Əvvəllər ara-sıra görüşürdük. Amma atam rəhmətə gedəndən sonra, son 10 ildə heç bir əlaqəmiz yoxdur. Eldəniz Quliyev özünə, Aqil M.Quliyev də özünə görə bir kişidir".

**Aqil bəy özü həbs olunan ərəfədə əmisi E.Quliyev onu müdafiə etmişdi. Ona bunu xatırlatdıqda rejissorun cavabı belə oldu:** "Mənim işim vaxtı Eldəniz Rüstəm İbrahimbəyovla bir blokda təmsil olunurdu. Hansısa siyasi rənglər verib məni müdafiə etmişdilər. Onun mənə canı yanan olsa idi qapımı döyərdi. Özü olmasa da qohum-əqrəbadan kimsə. Düzdü, Eldəniz öz sözünü deyən, qorxmaz insandı. Amma əmi-qardaşoğlu kimi bizim münasibətlər alınmadı".

Xatırladaq ki, R.Usubov iddiasında E.Quliyevin Cinayət Məcəlləsinin 147 (təhqir) və 148-ci (böhtan) maddələri ilə cəzalandırılmasını xahiş edib.

Buna səbəb isə Eldəniz Quliyevin mətbuatda bəzi yol polisi əməkdaşları haqda tənqidi fikirlər yazması olub.

❑ **Fəridə ABDIYEVA**

## Fransa küçələrində "Hafiz məni öldürdü" şüarları

**Fransanın Lans şəhərinin küçələrində üzərində qalmaqallı azərbaycanlı oliqarx, bu şəhərin adını daşıyan futbol klubunun majoritar səhmdarı Hafiz Məmmədovun şəkli olan yüzlərlə plakat yapışdırılıb.**

Virtualaz.org saytı "La Voix du Nord" nəşrinə istinadən xəbər verir ki, plakatlarda "Hafiz məni öldürdü" sözləri yazılıb.

Plakatların kimlər tərəfindən hazırlandığı və yayıldığı məlum deyil. Belə görünür ki, aksiya təşkilatçıları "Hafiz məni öldürdü" sözləri ilə azərbaycanlı oliqarxın "Lans" klubuna və etdiyi 18 milyon avro pulu vermədiyinə işarə edirlər.

Plakatların üzərində sirli "RT 94" abbreviaturası da yer alır. İstisna deyil ki, bu abbreviatura "Lans" azarkeşlərinin 1994-cü ildə yaratdıqları "Red Tigers" fan-klubuna işarədir.

Bu arada "Le Canal Football Club" xəbər verir ki, H.Məmmədov "Lans"a və etdiyi pulu vermək iqtidarında deyil və oyundankənar vəziyyətdədir. Onun əvəzindən Azərbaycan dövlətinin "Lans"ın büdcəsinə kömək etməyə hazırlaşdığı bildirilir.

"Lans"ın prezidenti Jerve Martel ötən həftə demişdi ki, "Hafka"nın verə bilmədiyi pul üçün Azərbaycan dövləti ilə danışıqlar aparır.



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Günün içindən

YENİ MÜSAVAT
N 233 (5942) 18 sentyabr 2014



Rza Hacıyev

**Sabunçu rayonunun keçmiş polis rəisi Rza Hacıyev yenidən mətbuatın diqqət mərkəzindədir. “Yeni Müsavat”a etibarlı mənbədən daxil olan məlumata görə, Telman İsmayılovun ("AST Telman" -red.) Antalyadakı “Mardan Palase” hotelində Rza Hacıyevin tanışı olduğu bildirilən qadının meyiti aşkarlanıb. 24 yaşlı Arzu Zeynalovanın bədənində zorakılıq əlamətləri olub. Məlumata görə, polis rəisi qadına həmin xəsarətləri yetirməkdə şübhəli bilinir.**

# Sabiq rəisin Türkiyədə qətl törətdiyi xəbəri yayıldı - şok

## Təqaüddə olan polis polkovniki Rza Hacıyevin “AST Telman”ın “Mardan Palase” hotelində 24 yaşlı xanımı döyərək öldürdüyü deyilir

Qaynağımız iddia edir ki, R.Hacıyev qadını döyərək öldürüb. Polis polkovniki olan R.Hacıyev bu ilin fevralında Neftçala Rayon Polis Şöbəsinin rəisi vəzifəsindən yaş həddi ilə bağlı azad olunaraq təqaüdə göndərilib. O, sonuncu iş yeri olan Neftçala RPŞ-yə Bakının Sabunçu Rayon Polis İdarəsinin rəisi vəzifəsindən çıxarılandan aylar sonra, 2009-cu ildə təyin olunmuşdu. 2008-ci ildə R.Hacıyevi Sabunçu RPİ-nin rəisi vəzifəsindən evində baş verən müdhiş oğurluğa görə çıxarmışdılar. Həmin vaxt R.Hacıyevin sürücüsü polis rəisinin ailə üzvlərindən biri ilə evdən qızıl-zinət və xeyli pul götürərək Rusiyaya qaçmışdılar. Sonradan R.Hacıyevin ümumilikdə 1 milyon manatlıq mal-pulunun oğurlandığı bildirildi. Bu hadisənin sorağı ölkə rəhbərliyinə çatandan sonra ən yuxarı səviyyədə R.Hacıyevin tutduğu vəzifədən azad edilməsi istənilmişdi. Arqument kimi isə “öz evini qoruya bilməyən rəis rayonu necə qoruya bilər” fikri səsləndirilmişdi.

Məsələ ilə bağlı XİN-ə sorğu versək də, hələlik cavab almamışıq.

**“Yeni Müsavat” olaraq R.Hacıyevin də məsələyə münasibətini dərc etməyə hazırıq.**

❑ **E.HÜSEYNOV**

# Qəzetlər “Qasid”in qərarına nə deyir?

**“Qasid” Açıq Səhmdar Cəmiyyəti pərakəndə satış şöbəsinin fəaliyyətini dayandırıb. Firmanın direktoru Mirkazım Kazımov sentyabrın 17-də “Media forum” saytına deyib ki, indən belə qəzet-jurnalı yalnız abunə sistemi üzrə yayacaqlar.**



Ələsgər Süleymanov

**“Yeni Müsavat” qəzetinin baş direktoru Ələsgər Süleymanov** “Media forum”a bildirib ki, “Qasid”in pərakəndə satışı dayandırdığı haqda onlara məlumat verilməyib: “Bizə rəsmi şəkildə bu barədə məlumat verilməyib. Firma bizdən satış üçün qəzet nüsxələri götürür və bunu dayandırmayıb. Sadəcə olaraq, biz satdığı qəzetlərin pulunu verə bilmədiyi üçün "Qasid"ə ayırdığımız tirajı çox aşağı salmışıq".

“Azadlıq” qəzetinin baş redaktorunun birinci müavini **Rahim Hacıyev** isə “Media forum”a deyib ki, sentyabrın 10-da “Qasid” rəhbəri ilə görüşəndə ona satış şöbəsinin bağlanacağı haqda xəbərdarlıq edilibmiş: “İndən belə bu firmaya qəzet verməyəcəyik”.

# Keçmiş baş redaktor qəzetlərdəki başsağlıqlarına qarşı çıxdı

## **Alqış Həsənoğlu:** “Bizim yas məclislərimiz həddindən artıq siyasiləşib”

**“Yas mərasimlərinin tənzimlənməsi ilə bağlı atılan addımları dəstəkləmək lazımdır. Burada inzibati müdaxilələr də qaçılmazdır. Təcrübə sübut edir ki, bəzən ən ali dəyərlər belə inzibati resursların təsiri olmadan həyata vəsiqə qazana bilmir. Ən demokratik proses belə bürokratik metodların dəstəyi olmadan məişətimizə, həyat tərzimizə nüfuz edə bilmir. Ona görə də dövlət müşavirliyinin, Dini Komitənin bu istiqamətdəki təşəbbüsləri başadüşüləndir”.**



Alqış Həsənoğlu

**“Yeni Azərbaycan” qəzetinin sabiq baş redaktoru Alqış Həsənoğlu** son günlər geniş müzakirə olunan yas və toy mərasimlərindəki israfçılıq halları ilə bağlı danışarkən belə deyib. Onun fikrincə, əslində, israfçılıq məsələnin görünən tərəfidir: “Şübhəsiz ki, burada iqtisadi maraqlar, gəlir-çıxar söhbəti olmamış deyil. Ancaq yaslardakı belə əndazəsizliyin həm görünməyən, həm də daha ciddi tərəfləri var. Bir problemi isə həll etmək üçün hər şeydən öncə onun mahiyyətinə varmaq gərəkdir. İsrafçılıq etmək o deməkdir ki, kimsə daha çox səxavət nümayiş etdirir, daha çox diqqət cəlb etmək istəyir. Bu da ki, heç də təsadüfi deyil. Deməli, israfçılığa qədər gedib çıxan bir proses var, israfçılığı yaradan səbəblər var. Mən hesab edirəm ki, bu, ifrat israfçılıq yox, ifrat siyasiləşmədir. Bizim yas məclislərimiz həddindən artıq siyasiləşib. Sanki insanlar arasında bir amansız yarış mövcuddur və bu rəqabət daha çox məmur təbəqəsi arasında özünü büruzə verir. Çox təəssüf ki, yas mərasimlərimiz bizim məmurlar arasında nüfuz dərəcələrini müəyyənləşdirmək üçün bir vasitəyə çevrilib. Təsəvvür edin, birinin rayonda yası düşür, mərhum orada dəfn edilir, sonra bir qayda olaraq Bakıda da yas mərasimi keçirilir. Məqsəd də bəllidir, yenə rəqabət və ambisiya: adamlar gəlməlidir, başsağlığı verməlidir, yas sahibinin əlini sıxmalıdırlar”.

**A.Həsənoğlu digər məqama da diqqət çəkib:** “Dövlət qəzetlərini vərəqləyəndə isə daha əcaib bir mənzərə ilə üzləşirsən: kiminsə qayınanası, qaynı və ya baldızı dünyasını dəyişib. Və dərhal eybəcər bir yarış başlayır, başsağlıqları durmadan axır və bu proses məhrumun qırxı çıxana qədər davam edir. Düzdür, qəzetləri bu yerdə heç cür ittiham etmək olmaz, onları başa düşmək asandır, redaksiya sifariş qəbul edir və bundan müəyyən məbləğdə qazanc əldə olunur. Mənim heç şübhəm yoxdur ki, bu siyasi israfçılığın əsasında az qala dövlət qəzetlərini işğal edən başsağlığı elanlarının böyük payı var. Ona görə də redaksiyalara bu məzmunlu müraciətlərdən gələn vəsaiti kompensasiya etmək şərtilə başsağlığı kampaniyası dövlət nəşrlərindən yığışdırılmalıdır. Çünki mən bilən, indi heç yerdə belə ənənə yoxdur. Sadəcə olaraq, qəzetlərdə elan verilə bilər ki, filankəs rəhmətə gedib, mərhumun dəfni hansı məkanda və nə vaxt olacaq. Elə bununla da kifayətlənmək lazımdır. Digər tərəfdən, bu cür başsağlığı vermək praktikası yas məclislərinin siyasiləşməsi üçün münbit mühit yaradır”.

❑ **Cavid TURAN**

# Elmar Vəliyevin “sağ əli”nin həbsinə hazırlıq görülür

## Gəncənin Nizami rayonunun keçmiş icra başçısı haqda prokurorluqda araşdırma aparılır

**Sentyabrın 10-da Prezident İlham Əliyevin sərəncamı ilə vəzifəsindən azad olunmuş Gəncə şəhər Nizami Rayon İcra Hakimiyyətinin başçısı Məharət Mustafayev barəsində Göygöl rayon hüquq-mühafizə orqanları tərəfindən araşdırma aparılır. “Bizim yol”un məlumatına görə, M.Mustafayev hələ icra başçısı vəzifəsində çalışarkən Göygöl rayon bələdiyyəsinin sədri ilə dalaşıb. Münaqişə zəminində bələdiyyə sədrinə bədən xəsarətləri yetirmiş M.Mustafayev barəsində polis şöbəsinə və prokurorluğa şikayət olunub. Daha sonra məsələ böyüyüb, olayla bağlı baş prokuror Zakir Qaralova məlumat verilib. Hadisə prezidentə məruzə olunduqdan dərhal sonra M.Mustafayev tutduğu vəzifədən azad olunub. Hazırda Göygöl Rayon Prokurorluğunda onun barəsində araşdırma aparılır. Bu, M.Mustafayevin ilk zorakı hərəkəti deyil.**



Elmar Vəliyev

2012-ci ilin dekabrında Məharət Mustafayev Gəncə şəhərində yerləşən Xatirə parkında Gəncə şəhər Dövlət Yol Polisi Şöbəsinin əməkdaşı, yol-patrul inspektoru Vüqar Sultanovu nalayiq sözlərlə təhqir etmişdi. Polis icra başçısına narazılığını bildirdikdə M.Mustafayev ona əl qaldırmışdı. Həmi vaxt M.Mustafayevi ölkə rəhbərliyinin qəzəbindən Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev yayındıra bilmişdi. M.Mustafayevin son zorakı hərəkəti isə E.Vəliyevi çox pis duruma salıb. Belə ki, ölkə rəhbərliyində M.Mustafayevin E.Vəliyevin “sağ əli” olması haqda kifayət qədər məlumat var. Onun zorakılıqlara qol qoymasında E.Vəliyevə arxalanması da hakimiyyətdəkilərə məlumdur. Odur ki, M.Mustafayevin zorakı hərəkətində E.Vəliyevin rolu da müzakirə mövzusu olub. Lakin E.Vəliyevin mənsub olduğu klan onu qınaqlardan bu dəfə də kənarda saxlaya bilib. E.Vəliyev ona bildirilən iradla kreslosunu qoruya bilsə də, M.Mustafayevi qurban verməli olub.

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 233 (5942) 18 sentyabr 2014

# Leyla Yunusa təcridxanada təzyiqlər davam edir

## Hüquq müdafiəçisinin kamerasına daha bir cinayətkar salıblar


Leyla Yunus

**Hazırda həbsdə olan Sülh və Demokratiya İnstitutunun direktoru, vicdan məhbusu Leyla Yunusa təcridxanada təzyiqlər davam edir. Artıq onun saxlandığı kameraya daha bir cinayətkar məhbus salıblar.**

Havasızlıqdan əziyyət çəkən L.Yunusun kamerasına salınan məhbusun siqaret çəkməsi onun onsuz da ağır olan vəziyyətini daha da ağırlaşdırır. Səhhəti ilə bağlı həyatına yaranan təhlükələr getdikcə artır. Hüquq müdafiəçisinə hücum edərək, onu təhqir edən kamera yoldaşı Nuriyyə Hüseynovanın da təzyiqləri səngimək bilmir. Təcridxana rəhbərliyinə olunan şikayət isə nəticəsiz qalır.

**Sentyabrın 16-da təcridxanada Leyla Yunusla görüşən vəkil Fariz Namazlı musavat.com-a açıqlamasında bunları deyib:** "Leyla xanımın saxlandığı kameraya daha bir məhbus salıblar. Açığı, onun əvvəllər məhkum olunması barədə bizdə dəqiq məlumat yoxdur. Sadəcə, məhbus siqaret çəkəndir. Onun tərəfindən Leyla xanıma təzyiq olmur. Amma Nuriyyə Hüseynova adlı məhbus tərəfindən təzyiqlər mütəmadi olaraq davam edir. Kameraya yeni gələn məhbusun siqaret çəkməsi Leyla xanımın səhhətinin daha da pisləşməsinə səbəb olub".

**Vəkil L. Yunusa qarşı təzyiqlərlə bağlı etdikləri şikayətə cavab verilmədiyini də qeyd edib:** "Leyla xanım görüşümüz zamanı bir daha həbsinin qanunsuz, hüquq müdafiəçisi olaraq fəaliyyəti ilə əlaqədar olduğunu bildirdi. İstintaqı ilə bağlı bir irəliləyiş yoxdur. Demək olar ki, istintaq aparılmır".

**F. Namazlı təcridxanada olduğu zaman digər məhbuslar İntiqam Əliyev, Rəsul Cəfərov və Məmməd Əzizovla da görüşdüyünü söylədi:** "Rəsul Cəfərovun heç nədən şikayəti yoxdur. Bazar ertəsi qardaşı ilə görüşüb. Görüş otaqları olmasına baxmayaraq, onlara şüşə arxasında görüş verirlər. Qanunla bu qadağandır. Bu isə onların narazılığına səbəb olub. İntiqam Əliyevlə bağlı olan əsas problem yazışmalarına olunan müdaxilədir. Onun müdafiəsi ilə bağlı bizlərə yazdığı yazılar əlindən alınır. Rəhbərlik baxandan sonra həmin yazılar bizə verilmir. Bununla bağlı etirazımızı bildirmişik. Amma məhəl qoyan yoxdur".

**L.Yunusa lazım olan ləvazimatları təcridxanaya aparmasına icazəsi olan psixoloq Azad İsazadə isə bu məsələdə problemlər yaşamadıqlarını bildirdi:** "Həftədə bir dəfə Leyla xanıma lazım olan ləvazimatları aparmaq hüququ mən və Samirə Ağayevaya verilib. Hər şənbə günü dostları və uzaq qohumları ilə birlikdə sovqat hazırlayaraq, təcridxanaya aparıram. İndiyə qədər heç bir problem yaranmayıb. Təbii ki, hər şey icazə daxilində olur. Əvvəllər dərman problemləri var idi. Amma indi elə bir şey yoxdur".

❑ Cavanşir ABBASLI

# Qurban Məmmədov həbsxanadan müsavatçılara təklif göndərdi

## Məhbus vəkil Qubad İbadoğlunun iqtisadi, nəzəri bilikləri ilə Arif Hacılının idarəçilik təcrübəsi və şəxsi keyfiyyətlərinin birləşməsini istəyir

**Tanınmış vəkil Qurban Məmmədov həbsxanadan musavat.com-a məktub göndərərək Müsavat Partiyasının yeni başqanının kimi olması ilə bağlı təkliflərini açıqlayıb. Q. Məmmədov məktubunda bildirib ki, könüllülük əsasında əmələ gələn partiya və sair ictimai təşkilatların idarəçiliyi ilə rəsmi orqanların idarəçiliyi kökündən fərqlidir. İkincilərdə vəzifə təlimatları, qanunlarla təsbit edilən hüququ, vəzifələrə əməl etmənin vacibliyi və bundan sonra doğan müxtəlif sanksiyalar, tənbeh, tədbirlər rəhbərliyi asanlaşdırırsa, birincilərdə bunlar ya heç yoxdur, ya da olanlarda xaraktercə tam fərqli təsir mexanizmləridir.**

Partiya üzvü öz halal qazancından üzvlük haqqı verməklə, heç bir maddi və sair qarşılıq gözləmədən partiyanın qərarlarını icra etmək, onun tədbirlərində iştirak etməklə fəaliyyət göstərirsə, rəsmi orqanlarda tam əksinədir. Bu baxımdan partiya idarəçiliyi rəhbərdən: həssaslıq, diqqətlilik, xarizma, səbr, ehtiyatlılıq, cazibə, geniş əlaqələr, cəsarət, qərarlılıq və s. kimi şəxsi keyfiyyətlər tələb edir: "Bunlarla yanaşı, məncə, ən vacib olan element isə idarəçilikdə varisliyin təmin edilməsidir. Faktlar göstərir ki, istər dövlətdə, istər rəsmi orqanlarda, istərsə də ictimai-siyasi təşkilatlarda inqilabi dəyişikliklər həmin subyektlərin taleyində daha çox mənfi nəticələr doğurur. Komandanın, idarə edənlərin tam yenilənməsi idarəçilikdə problemlər və s. itkilər yaradır.

Buna görə də İsa bəyi əvəz edəcək ən münasib namizəd kimi Arif Hacılını görürəm. Heç şübhəsiz ki, Qubad İbadoğlu da bu vəzifəyə tam hazır və layiqli kadrdır. Şəxsi münasibətlərimiz də olduqca yaxşıdır. Bilirəm ki, Qubad bəy prezident olsa, Azərbaycanda siyasi məhbus qalmayacaq, mən də azadlıqda olacağam. Ancaq Qubad bəylə elə sıx əməkdaşlığım və işbirliyim olmayıb ki, onun digər vacib keyfiyyətlərinə bələd olum.

Arif Hacılını isə Xalq Hərəkatının birinci günündən, o, Zaqatalada fəaliyyətə başlayandan tanıyıram. Əvvəla, AXC-nin Zaqatala şöbəsi məhz həm də onun fəal təşkilatçılıq və şəxsi fəaliyyəti nəticəsində o dövrdə ən güclü yerli təşkilatlarımızdan biri olub. Bakıya, AXC-nin mərkəzi orqanlarında fəaliyyət göstərməyə gələndən sonra da öz aktivliyi və çevikliyi ilə seçilib. Mənim onda dəyərləndirdiyim ən vacib keyfiyyət lazım olanda məsuliyyəti cəsarətlə öz üzərinə götürmək həvəsidir. Cəsurdur, qorxmazdır, qərarlıdır. Situasiyanı vaxtında və tez dəyərləndirib, vəziyyətə uyğun qərar qəbul etmək gücündədir. Siyasi fəaliyyətində, şəxsi münasibətlərində, ideoloji mövqeyində ardıcıldır. Ətrafdakı adamlarla tez və asan dil tapmağı, əlaqə qurmağı bacarır, kompleksi yoxdur. Bəzən hərəkət və mimikası acı, xoşagəlməz olsa da, hər belə halının arxasında vacib və xoş bir niyyətin gizləndiyi sonradan ortaya çıxır. İsa Qəmbərə, Müsavata və dostlarına, partiya yoldaşlarına sadiqliyini bu illərdə dəfələrlə sübut edib".


Qurban Məmmədov

**Q.Məmmədov daha sonra qeyd edib ki, A. Hacılı bir partiya rəhbərinə lazım olan zəngin siyasi həyat yaşayıb. Dövlət idarəçiliyində, qrupdaxili münasibətlərdə, şəxsi mübarizə sahəsində, kütləvi tədbirlərin təşkili idarəçiliyində, seçki proseslərində lazımi təcrübəyə malikdir:** "Həbs planını da doldurub. Xarizmatik bir lider kimi, səlis nitq qabiliyyəti və geniş dünyagörüşə malik olan bir şəxs kimi Müsavata yeni nəfəs, dinamika verəcəyinə inanıram.

Ən vacibi də, yuxarıda qeyd etdiyim kimi, uzun müddətdir İsa bəylə bir yerdədir, onun hər addımının, hər qərarının şahidi və iştirakçısıdır. Partiyanı demək olar ki, birgə idarə ediblər. Bax bu "idarəçilik varisliyi" təmin etmək, Müsavatda lazımsız çalxalanmalara və itkilərə yol verməmək üçün bu dönəmdə Arif Hacılının başqan olması daha çox arzu olunandır".

**Məktubunda Q.Məmmədov A.Hacılının nöqsanlarının da olduğunu yazıb:** "Təbii ki, bizim hamımız kimi, Arif Hacılının da müəyyən nöqsanları var. Ancaq bu nöqsanlar başqanlığa, insanları idarə etməyə mane ola biləcək səviyyədə deyil. Məncə, Qubad İbadoğlunun iqtisadi, nəzəri bilikləri ilə Arif Hacılının idarəçilik təcrübəsi və şəxsi keyfiyyətlərinin birləşib, bir komanda kimi ortaya çıxması Müsavata və ümumən müxalifətə faydalı olacaqdır. Hər ikisinə uğurlar arzulayıram".

❑ E.SEYİDAĞA

# Partiyalara daha bir məhdudiyyət qoyulur

## Qanuna ianələrlə bağlı təklif edilən yeni dəyişiklik çaşqınlıq yaratdı

**Milli Məclis "Siyasi partiyalar haqqında" Qanunda bir sıra dəyişikliklər edəcək. Bu barədə Milli Məclisin Sosial siyasət komitəsi ilə birgə iclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib. Əli Hüseynli bildirib ki, dəyişiklik barədə qanun layihəsinə əsasən, siyasi partiyaların üzvlük haqqı onların nizamnamələrində aydın şəkildə göstəriləcək. Bununla yanaşı, siyasi partiyalara verilən ianələrin yuxarı həddi də müəyyən edilib. Siyasi partiyalara bir il ərzində ən çoxu 10 min manat ianənin verilməsi nəzərdə tutulur. Bu barədə "Trend" məlumat yayıb.**

Bir sıra siyasətçilər və ekspertlər qanuna bu şəkildə dəyişikliyin edilməsinin Azərbaycanda partiyaların vəziyyətini daha da çətinləşdirəcəyini düşünürlər.

Məsələn, tanınmış **hüquqşünas Müzəffər Baxışov** hesab edir ki, dəyişiklikdən açıq şəkildə görünür ki, məqsəd siyasi partiyaların fəaliyyətini məhdudlaşdırmağa xidmət edir. Siyasi partiyanın fəaliyyət göstərməsi üçün maliyyə mənbəyinin mühüm faktor olduğunu deyən M.Baxışov vurğulayıb ki, normal siyasi partiya üçün 10 min manat ianə təşkilatın bir aylıq xərcini təşkil etmir: "Siyasi partiyaların normal fəaliyyət göstərməsi üçün yüz min manata yaxın vəsait tələb olunur. Hakimiyyət isə bunu 10 min manat həcminə endirir. Hakimiyyət bu cür məhdudiyyətlər qoymaqla, ümumiyyətlə, ölkədə siyasi partiyaların fəaliyyətini dayandırmaq istəyir".

**AXCP Ali Məclisinin sədri Həsən Kərimov da "Azadlıq" qəzetinə deyib ki, hakimiyyətin bu formada dəyişiklik etməsində məqsəd siyasi partiyaları sıradan çıxarmaqdır:** "Görünür, bundan sonra siyasi partiyaların qapadılması istiqamətində də "addımlar" atılacaq. Çünki hakimiyyətin yürütdüyü xətt ondan ibarətdir ki, ölkədə bir partiya olsun. Azərbaycan hakimiyyəti nə konstitusiyaya hörmətlə yanaşır, nə də ölkədə alternativ, güclü siyasi qüvvənin olmasını istəyir".

**Maraqlıdır ki, YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov da qanuna belə bir dəyişikliyin ediləcəyi barədə xəbər yayılandan sonra o cür dəyişikliyin ziyanlı olacağını deyib. Eyni zamanda bildirib ki, ediləcək dəyişikliyin əslində nədən ibarət olduğu düzgün izah edilməyib. YAP-çı deputat virtualaz.org saytına açıqlamasında bildirib ki, ianənin maksimum və minimum həddini müəyyənləşdirmək olar. Bir siyasi partiya il ərzində 10 min manat ianə alarsa, bu vəsait onun heç bir fəaliyyət istiqamətinə fayda verə bilməz:** "Siyasi partiyaların maliyyələşməsinin əsasları haqqında qanunda göstərilir ki, siyasi partiyalar üzvlük, ianə və dövlət büdcəsindən ayrılan vəsait hesabına maliyyələşə bilər. İanənin maksimum həddi 10 min manat göstərilə bilər. Məsələn, bu gün hər hansı bir partiyaya bir neçə şəxs gəlib 5 min, 10 min manat ianə vermək istəyirsə, bunu heç bir qanunla qadağan etmək olmaz. Bu, mümkün olan bir məsələ deyil".




**S.Novruzovun sözlərinə görə, siyasi partiyanın ildə maksimum 10 min manat ianə ala bilməsi mümkün deyil:** "Bəlkə xalqın yarısı hansısa bir siyasi partiyaya ianə vermək istəyir... Bunun qarşısını necə almaq olar? Bunun yalnız maksimum və minimum məbləği göstərilə bilər. Ancaq bu ianəni xarici vətəndaşlar, vətəndaşlığı olmayan şəxslər və xarici hüquqi təşkilatlar edə bilməz".

**Ümid Partiyasının sədri, deputat İqbal Ağazadənin** isə "Yeni Müsavat"a açıqlamasından məlum oldu ki, Siyavuş Novruzovun, həmçinin müxalifətçilərin ciddi narahat olması üçün əsas yoxdur. İqbal Ağazadə məlumat verdi ki, "Siyasi partiyalar haqqında" Qanuna ediləcək dəyişiklikdə partiyaya il ərzində ən çoxu 10 min manat ianə verilməsi məsələsini bir çoxları yanlış başa düşüblər. Dəyişiklikdə söhbət 1 nəfərin ildə partiyaya ən çoxu 10 min manat ianə verməsindən gedir. İqbal Ağazadə hesab edir ki, 1 nəfərin partiyaya ildə maksimum 10 manat ianə verməsinə qanunda icazə verilməsi normal sayıla bilər.

**Müsavat Partiyasının Divan üzvü, sabiq deputat İkram İsrafil də düşünür ki, əgər qanuna dəyişiklik təklifində bir nəfərin partiyaya il ərzində maksimum 10 manat ianə verməsi nəzərdə tutulubsa, bunu facıə hesab etmək lazım deyil, Azərbaycan kimi ölkədə bununla da keçinmək mümkündür:** "Seçki Məcəlləsində də namizədlərə ianələrin verilməsi ilə bağlı maddələr var. Orada göstərilir ki, bir namizədin seçki fonduna fərdlər tərəfindən maksimum hansı məbləğdə ianə verilə bilər. Bu, Avropa ölkələrinin də qanunlarında nəzərdə tutulan məsələdir. Təəssüf ki, Azərbaycanda qanunlar daha çox partiyaların fəaliyyətini məhdudlaşdırmaq istiqamətində qəbul edilir. Arzu olunan odur ki, "Siyasi partiyalar haqqında" Qanun və ona edilən dəyişikliklər siyasi partiyaların inkişafına xidmət eləsin. 10 min manat bir adam üçün nəzərdə tutulubsa, buna təəccüb etmirəm. Azərbaycan reallığını nəzərə alıb deyirəm ki, əgər bir adama 10 min manat ianə ödəmək imkanı yaradılırsa və məsələ qanunileşdirilirsə, buna facıə kimi baxmıram. Əlbəttə, siyasi baxımdan inkişaf eləmiş demokratik ölkələrdə daha böyük məbləğlərə icazə verilir".

❑ Etibar SEYİDAĞA

# Ölkə müxalifəti geniş konfrans keçirdi və demokratiyanı müzakirə etdi

## Tədbirə müxalifətin bir hissəsi qatılmadı, qatılanlar repressiyalarla bağlı bəyanat verdi və narahatlıq dolu qətnamə qəbul etdi...

**Sentyabrın 17-də Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzi "Azərbaycanda demokratiyanın vəziyyəti" mövzusunda geniş konfrans keçirib. Konfransda Müsavat, KXCP, Ümid, ADP və digər müxalifət partiyalarının təmsilçiləri, ümumilikdə yüzdən artıq insan iştirak edib.**





Musavat.com-un tədbirdə olan əməkdaşının verdiyi xəbərə görə, KXCP sədri Mirmahmud Mirəlioğlunun rəhbərlik etdiyi tədbir dövlət himninin səslənməsi ilə başlanıb. Bundan sonra Xalq Cümhuriyyətinin qurucuları bir dəqiqəlik sükutla yad edilib.

**M.Mirəlioğlu** çıxış edərək bildirib ki, tədbirə parlamentdə təmsil olunan partiyalar, həmçinin hakim partiya olan YAP da dəvət olunub. Onun sözlərinə görə, tədbirə bütün siyasi partiya rəhbərləri, nümayəndələri dəvət olunsa da, müəyyən şəxslər iştirak etmir. O qeyd edib ki, ölkədəki son həbslər siyasi partiyaları bir araya gəlməyə və durumu dəyərləndirməyə məcbur edir.

Geniş məruzə ilə çıxış edən **Müsavat başqanı İsa Qəmbər** bildirib ki, mövcud rejim ölkədə demokratiyanı məhdudlaşdırmaq yolunu tutub. O, fakt kimi sadəcə konstitusiyanın dəyişdirilməsini, iki dəfə keçirilən referendumu göstərib. O qeyd edib ki, demokratiyanın məhdudlaşdırılması ölkəmizin çağdaş dünyada layiq olduğu yeri tutmasına imkan vermir. Demokratik inkişaf Qarabağ münaqişəsinin inkişafına da imkanlar yaradacaq. Ölkənin müstəqilliyinin təhdid altında olduğunu vurğulayan İ.Qəmbər insanların mühacirətindən də təəssüflə danışıb: "Biz nə edəcəyimizi müzakirə etməliyik. Demokratiyanın qarşısının alınması rejimin seçimidir, özünün rəva gördüyü yanaşmadır. Günahı ilk növbədə rejimdə görməliyik. Həmçinin daxili və xarici amillər var". **İ.Qəmbər beynəlxalq təşkilatları da bu məsələdə qınayıb. O, həmçinin deyib ki, yaranmış vəziyyət hakimiyyətlə yanaşı, daxili və xarici amillərlə də bağlıdır:** "Bəzi qüvvələr ölkədəki vəziyyətin dəyişməsi üçün müxalifətin dəyişməsini istəyir. Bu yanaşmalar məntiqsizdir". "Bizim tərəfdarlarımız bütün xalqdır. Xalq ölkədə dəyişiklik istəyir, xalqın demokratik dəyişikliklərə inamsızlığı var, bunu dəyişməliyik. Azərbaycanda demokratiyanın inkişafı üçün yenidən bir başlanğıc edəcəyik",- deyə Müsavat başqanı dəyişikliklərin yaxında olduğunu vurğulayıb.

**Ümid Partiyasının sədri İqbal Ağazadə isə çıxışında bildirib ki, "nə etməli" sualına cavab axtarmaq lazımdır:** "Cəmiyyətə açıq olmalıyıq. Xalq bu prosesə cəlb olunmalıdır. Kim nə qədər mübarizə apara bilirsə, o siyasi təşkilatlarla o qədər irəliləmək lazımdır. Xalq prosesin içinə alınmayacaqsa, məğlubiyyət qaçılmazdır. Funksional əməkdaşlıq üçün bizə heç nə mane olmamalıdır". **Onun sözlərinə görə, cəmiyyətdə bir siyasət qorxusu var:** "Bu qorxu götürülməlidir və daha çox insan bizim sıralarımıza cəlb olunmalıdır".





**Azadlıq Partiyasının sədri Əhməd Oruc da bildirib ki, demokratik inkişafı təmin etmək üçün ilk öncə polemikalara açıq olmaq lazımdır:** "Bu məsələləri müzakirə etməliyik, bundan çəkinməli deyilik".

**Aydınlar Partiyasının sədri Qulamhüseyn Əlibəyli isə qeyd edib ki, heç kim bizim əvəzimizə gəlib demokratik mühit yaratmayacaq:** "Vuruşuruq, biz vuruşacağıq. Sıradan çıxanlar var, ağırdır, bunu bilirik. Amma bu yolda yürümək lazımdır".

**ADP sədri Sərdar Cəlaloğlu isə bildirib ki, demokratiya hakimiyyəti dəyişmək üçün yox, ilk növbədə insan kimi yaşamaq üçün lazımdır. Onun sözlərinə görə, mübarizənin gedişində beynəlxalq təşkilatların rəyini nəzərə almaq lazımdır:** "Biz indiyədək bu rəyi nəzərə almamışıq". O həmçinin deyib ki, ölkədə demokratikləşmənin baş verməsi üçün iqtidarla müxalifətin təması, dialoqu vacibdir. S.Cəlaloğlu prosesin yanlış gedişində məsuliyyəti bölüşdürməyin vacibliyini də qeyd edib.

**Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər** isə bildirib ki, müxalifət daxili yarışdan imtina etməlidir. Həmçinin hakimiyyətlə dialoq və əməkdaşlıq yolunu hər zaman vurğulamaq lazımdır.

**Vəhdət Partiyasının sədri Tahir Kərimli isə müxalifəti qabiliyyətsizlikdə ittiham edib.** "Niyə xalq sizi dəstəkləmir? Ya xalq müdrik deyil, ya da müdriksə, niyə sizi dəstəkləmir? Niyə indiyədək heç bir lider demir ki, mən hakimiyyətə gəlsəm, siyasi sabitliyi bərpa edəcəm. İsa Qəmbər və Əli Kərimli hakimiyyətə gələcəkləri təqdirdə, ölkədə sabitlik yaradacaqlarını deməyiblər. Çünki onlar anlayırlar ki, ölkədəki bu sabitliyi qoruyub saxlaya bilməyəcəklər. Niyə boyun olmurlar? Hərdən çaşıb mən də özümü müxalifətə aid edirəm. Məni iqtidarın adamı adlandırırlar. Buna görə qorxumdan "feysbuk"a girə bilmirəm",- deyə müxalifətçiləri tənqid edib.



**T.Kərimli bildirib ki, hazırda Azərbaycanda müxalifətin durumu ağır vəziyyətdədir:** "Müxalifət hakimiyyətlə dialoqa getməlidir. Müxalifət bu gün hədsiz dərəcədə zəifləyib. İsa Qəmbərin də dediyi kimi, xalq müxalifətə inamını itirib. Bunun da səbəbi özümüzdədir. Mən hesab edirəm ki, biz ölkədəki vəziyyəti dəyişmək üçün hakimiyyət nümayəndələri ilə danışıqlar aparmalıyıq. Əgər buna cəhd olacaqsa, səmərə verəcəyinə ümid edirəm".

**Bu isə tədbirdə bir qədər gərginlik yaradıb. Müsavat başqanı İ.Qəmbər yenidən söz alaraq etiraz edib və deyib ki, xalq müxalifəti dəstəkləyir və elə ilk demokratik seçkidə buna şahid olmaq olar:** "Cəmiyyət dinc yolla dəyişikliyə etimadı itirib, buna görə proseslərə qoşulmur". **O bildirib ki, xalqın müxalifətə inamını itirməsi haqda fikir səsləndirməyib, onun dedikləri yanlış anlaşılıb:** "Görünür, mənim fikrim yanlış anlaşılıb. Mən dedim ki, cəmiyyət hakimiyyətin dinc yolla dəyişməsinə etimadını itirib. Azərbaycan xalqı zorakı yox, dinc yolla dəyişiklik istəyir. Ona görə də xalq proseslərə fəal qoşulmur. Mən bu tezisi yəqin düzgün izah etməmişəm ki, bəziləri bunu səhv anlayıb. Bu gün xalqın müxalifətə inamı var. Bütün seçkilərdə xalq demokratik qüvvələrin namizədini dəstəkləyib". **O, qeyd edib ki, müxalifətdə təmsil olunan siyasətçilərin hamısı hakimiyyətlə dialoqa getməyə hazırdır:** "Azərbaycan müxalifətində demokratiya və məmləkət məsələlərində hakimiyyətlə dialoqa etiraz edən bir nəfər də olsun siyasətçi yoxdur. İstər bu konfransda iştirak edən, istərsə də etməyən Azərbaycan müxalifəti radikal deyil". Müsavat başqanının sözlərinə görə, Azərbaycanda demokratiyanın olmasını istəyirlərsə, bu işə birinci siyasi partiyalardan başlamaq lazımdır.

**AXP sədri Pənah Hüseyn isə bildirib ki, güclənmək lazımdır:** "Bu, siyasi partiyaların fəallığından keçir. Hesab edirəm ki, kütlənin passivliyi siyasətçilərin passivliyindən keçir. Bu gün bu fəallaşmanın proqramı verilir". O, həmçinin kütləvi aksiyaların keçirilməsinin müzakirə edilməsini də təklif edib.

**Müsavat Partiyasının İcra Aparatının rəhbəri Arif Hacılı** isə bildirib ki, demokratiyanın vəziyyətini, Azərbaycan cəmiyyətindəki vəziyyəti bilməyən yoxdur. Onun sözlərinə görə, Azərbaycan hakimiyyəti 2009-ci ildə bir nəfərin iki dəfə prezident seçilməsi qadağasını ləğv etdikdən sonra Azərbaycan cəmiyyəti ilə əlaqədar siyasi baxışlarını dəyişib: "İmitasiyaya ehtiyac görmür artıq". Digər çıxış edənlər də ölkədəki vəziyyətlə bağlı fikirlərini bildiriblər.

**Yekunda sözügedən mərkəz vətəndaş cəmiyyəti təşkilatları, media quruluşları nümayəndələrinə qarşı repressiyalarla bağlı bəyanat verib. Bəyanatda bildirilir ki, son dövrdə ölkədə onlarla hüquq müdafiəçisi, jurnaist və gənclik hərəkatı fəalları həbsə atılıb:** "Avropa Şurasının üzvü olan bir ölkədə 50-yə qədəri vicdan məhbusu olmaqla hazırda həbsdə olan siyasi məhbus sayı 100 nəfəri keçib. Fərqli düşünən, müxalif mövqe nümayiş etdirən şəxslərə və onların yaxınlarına qarşı nümayişkaranə şəkildə psixoloji təzyiq, təhdid, hədələmə, ayrı-seçkilik, şantaj, təxribatlar tətbiq edilir. Hakimiyyətə və onun başçısı İlham Əliyevin siyasətinə tənqidi mövqe tutan tanınmış hüquq müdafiəçiləri, media nümayəndələrinin sosial şəbəkə fəallarının, gənclik hərəkatı fəallarının həbsi, barələrində xüsusi ittiham qaydasında iddia qaldırılması, bir sıra müxalifyönümlü şəxslərin qohumlarının şərlənərək həbs edilməsi birbaşa və ya dolayısı şəkildə bu kampaniyanın tərkib hissəsidir. Eyni zamanda bu həbslər Avropa Şurası və bütövlükdə beynəlxalq aləmin Azərbaycanda insan hüquq və azadlıqları sahəsində vəziyyəti yaxşılaşdırmaq və xüsusilə siyasi məhbus problemini həll etmək tələblərinə iqtidarın özünəməxsus cavabıdır. Faktlar göstərir ki, ölkədə fəaliyyət göstərən vətəndaş cəmiyyəti qurumlarını məhv etmək barədə siyasi qərar qəbul edilmiş, vergi, prokurorluq, maliyyə, ədliyyə, təhlükəsizlik orqanlarının müstəqil QHT - lər və onların rəhbərlərinə qarşı kütləvi yoxlama və repressiyaların yeni dalğası başlayıb".

Konfrans iştirakçıları vətəndaş cəmiyyəti və media quruluşlarına və onların nümayəndələrinə qarşı təqib və repressiyaları qətiyyətlə pisləyib, bu hallara son qoyulmasını, həbs olunmuş şəxslərin azad edilməsini tələb edib.

Həmçinin Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzinin konfransında qətnamə də qəbul edilib. Qətnamədə ölkədə demokratiya göstəricilərinin bütün parametrlər üzrə - əsas insan hüquq və azadlıqlarına əməl olunması, hakimiyyətin azad və ədalətli seçkilər vasitəsilə formalaşması, məhkəmələrin müstəqilliyi, ifadə azadlığı, hakimiyyət üzərində ictimai nəzarət, icra hakimiyyəti üzərində parlament nəzarəti, vətəndaş cəmiyyətinin inkişafı, hüquqi dövlət quruculuğu və digər sahələrdə vəziyyətin praktikasının və qanunvericilik bazasının sistemli, davamlı şəkildə pisləşdiyi qeyd olunub.

**Qeyd edək ki, AXCP və VHP təmsilçiləri, eləcə də Milli Şuranın sədri Cəmil Həsənli tədbirə qatılmayıb.**

**❑ Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**



# “Qızmış meymunlar” mövsümü

Samir SARI

**Bir neçə gün öncə şəhərin mərkəzində olduqca adi və yayğın bir hadisə baş verib: küçədə ayağının birini divara söykəyərək gəlib-gedənlərə tamaşa edən, arada gözləri kəsdirdiklərinə söz atan, guya ki, cavanlıq edən üç növcavan növbəti “qurban”larına sataşıblar.**

Birinci abzasda dediyimiz kimi, bu adi haldır, hər gün Bakıda, eyni zamanda ölkəmizin mədəniyyət paytaxtı olan şəhərdə minlərlə qıza, gəlinə söz atır, sataşırlar. Avropada, Amerikada, sair mədəni ölkələrdə “cinsi xarakterli sataşma” sayılan və qanunun bütün sərtliyi ilə cəzalandırılan bu cinayət növünə görə ölkəmizdə heç kəsə güldən ağır söz deyilmir.

Hərçənd bəzən söz atılan qızın, gəlinin yiyəsinin *(atası, qardaşı, əri, nişanlısı)* böyürdən çıxıb sataşanları təpiyinin altına salması kimi hallar baş verir. Bu da 0,01 faiz təşkil eləmir. Çünki sataşqan gədələr adətən tək qadınlara, yanında kişi xeylağı olmayanlara “ilişirlər”. Beləsi daha rahatdır. İntəhası, on min haldan birində tək qadının qayıdıb sataşanlara cavab verməsi halı da olur.

Bir neçə gün öncə şəhərin mərkəzində baş verən hadisə belə bir məcrada inkişaf edib. Ayağının birini divara söykəyən gədələr yeni dərs ilinin başlanması ilə küçələrə çıxmış qarşı cinsin nümayəndələrini görərək qızmış olmaları səbəbindən sataşdıqları qadının arxasınca fit çalıblar, türkün sözü, tacizlərini uca səslə davam etdiriblər. Belə olanda həmin qadın, bir az da feminist ruhlu olması, fağır-fasıq olmaması üzündən onlara cavab verib. Nəticədə gənclər daha da həyasızlaşıblar. Təhqir, söyüş, qışqırıq.

Belə vəziyyətlərdə dillənən qadına adətən nə deyərlər? Bəli, onu da deyiblər. Ətrafdakı dükançılar, taksi sürücüləri, yol keçənlər hamısı ağzını ayırıb tamaşaya durubmuş. Bir nəfər yaxınlaşıb demirmiş ki, ey gənclər, küçəylə yolunu gedən tək qadınla nə işiniz var, camaata niyə sataşırsınız.

Xüləs, 102-yə zəngdən sonra işə polis də qarışıb. Gənclərdən birini bölməyə aparıblar, sonra tanışlıqla buraxıblar. Sosial şəbəkədə, mediada bu barədə yazılandan sonra işə hazırda BŞBPİ-də baxılır.

Bu, hadisənin qısa xronikası idi, indi keçək başqa mətləblərə. Onu da qeyd edək ki, başına iş gələn qadın yazı-pozu adamıdır, media mühitində tanınır. Düzdür, bir çoxları onun “jurnalist” kimi təqdim edilməsinin əleyhinədir, amma bu xanımın azı beş saytda yazıları gedib. İndi deyirlər ki, o jurnalist deyil.

Yaxşı, jurnalist deyil, olmasın. Heç müəllimə də deyil, adi qadındır, yol keçəndir. Bu o deməkdir ki, cinsi istəklərinin Everestə dırmaşması üzündən küçədə, metroda, avtobusda erkək meymun səsi çıxaran yanıq gədələr ona sataşmalıdır? Belə cavanlıq və ya kişilik olurmu?

Bəziləri deyirlər: “Bizə niyə sataşmırlar?” Niyə sataşmırlar ki? Bal kimi də sataşırlar. Yetər ki, qadın bir az gözəgəlimli olsun. Belə seksual manyaklar yalnız o qadına sataşmırlar ki, gözlərinə uyğun görünmür, ondan umacaqları olmur, yerdə qalan hamıya sataşırlar.

“Povod verməsələr, sataşan olmaz”. Belə deyənlər də var. Havayı söhbətdir. Manyak gədələr bəhanə verənə də, verməyənə də sataşırlar. Bunların əlindən qadınlar yolda maşın sürə bilmirlər, elə marıtlayıb baxırlar ki, sanasan, qadın deməlidir: “İlk döngədə saxla gəl, gedək dəniz qıraqına”.

Bu, sosial problem olmaqla yanaşı, bir az da mədəniyyət problemidir. Əlbəttə, bu məsələdə 39-42-ci paralellərdə yerləşməyimizin də böyük rolu var. İtaliya da eyni meridian və paralellərdə yerləşdiyindən orda da qızmış “meymun”lar çoxdur. Hətta sabiq baş nazir Berluskoni bu problemi şərh edərkən təxminən demişdi ki, gədələr neyləsinlər, italyan qadınları çox gözəldir, onlara sataşmamaq mümkün deyil.

Amma bu iş belə getməz. Görünür, bu məsələdə qanunları sərtləşdirmək və tətbiq etmək lazım gələcək. Necə ki, əvvəllər qız qaçıranlara bir söz deyən yox idi, polis işə qarışanda da ağsaqqallıq edib gəncləri evləndirirdi. Hazırda isə qız qaçıranlar “adam oğurluğu” maddəsinin altına girirlər, şikayətin geri götürülmədiyi halda türmədə günləri qara olur.

Gün gələcək, küçədə qadınlara sataşanların bir dəstəsi içəridə haqq-hesab verəcək. Əlinizi və dilinizi fərağat qoyun.

**Müsavat Partiyasının VIII qurultayına sayılı günlər qalır. Başqanlığa namizədlərin qeydə alınması prosesi sentyabrın 17-də saat 12:00-dan etibarən başa çatıb. Seçkili orqanlara kifayət qədər şəxs öz iddiasını irəli sürüb. Təbliğat-təşviqat kampaniyası seçki gününə qədər davam edəcək.**

# Müsavat BŞİH-in ayırdığı yerdən imtina edə bilər

## Səbəb icarə haqqının fantastik məbləğ olmasıdır

Bütün bunlara baxmayaraq, partiyanın qurultayını BŞİH-in təklif etdiyi Suraxanı rayonu, Əmircan qəsəbəsində yerləşən Səttar Bəhlulzadə adına Mədəniyyət Evində keçirəcəyi hələ də məlum deyil. Belə ki, icarə haqqı olaraq mədəniyyət evinin rəhbərliyinin 1 saat üçün 220 manat tələb etməsi partiyanı çətin duruma salıb. Hazırda alternativ kimi, şadlıq sarayları ilə danışıqlar aparılır.

**Müsavat başqanının müavini Gülağa Aslanlı namizədlərin qeydə alınması prosesi ilə bağlı bunları deyib:** “Artıq namizədlərin qeydiyyatı rəsmən başa çatıb. Son durum bundan ibarətdir: başqanlığa 4, MNTK-na 31, sərbəst Məclis üzvlüyünə 144 nəfər iddiasını irəli sürüb. Bundan əlavə, 4-5 nəfərin ərizəsinə Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsinin iclasında baxılacağı və təsdiqlənməsi gözlənilir. Say komissiyaları hələ müəyyən edilməyib. Qurultay günü məlum olacaq. Amma say komissiyalarının müəyyənləşdirilməsi, qurultayda namizədlərin qeydə alınması, mandat komissiyası ilə bağlı sənəd hazırlanıb. Bu sənəd hələ müzakirə olunmayıb. Ola bilsin ki, bu gün müzakirə olunsun”.

**Başqan müavini Təşkilat Komitəsində müzakirə olunacaq məsələlərlə bağlı da danışıb:** “Qurultayın 27-də keçirilməsi ilə bağlı artıq qərar çoxdan verilib. Bunu qərarlaşdırmağa ehtiyac yoxdur. Sadəcə, partiyanın proqramına ediləcək əlavə və dəyişikliklər müzakirə olunacaq. Namizədlərin siyahısı artıq təsdiq olunacaq. Vaxt olarsa, digər vacib məsələlər müzakirə olunacaq”.

**Partiya funksioneri qurultay keçiriləcək mədəniyyət evindən icarə haqqının yüksək olduğuna görə imtina edilməsinin mümkünlüyündən də danışıb:** “Hazırda yer üçün şadlıq sarayları ilə danışıqlar aparılır. Ola bilsin ki, müvafiq şadlıq sarayı ilə razılıq əldə olunsun və ali tədbirin orada keçirilməsi haqqında qərar verilsin. Qurultayın Səttar Bəhlulzadə adına Mədəniyyət Evində keçirilməsi haqqında indidən qəti fikir söyləmək olmaz”.

❑ Cavanşir ABBASLI

# KXCP-Milli Şura münasibətləri gərginləşdi

## Xəzər Teyyublu: “Milli Şuranın tərkibinin bu cür genişləndirilməsinə ehtiyac yoxdur”

**Milli Şuranın ötən həftənin sonunda keçirilən sessiyasına KXCP sədri Mirmahmud Mirəlioğlu və müavinlərinin qatılmamasına KXCP rəhbərliyi ilə Milli Şura arasında problemlərin səbəb olduğu haqda yazdıqlarımız təsdiqini tapıb. Məlum olub ki, KXCP rəhbərliyi Milli Şuranın sözügedən sessiyasında quruma AXCP-yə yaxın bir qrup şəxsin üzv qəbul ediləcəyini əvvəldən bilib və buna etiraz olaraq sessiyaya qatılmayıb. Dünən isə KXCP-nin Milli Şuradan tam tərkibdə çıxdığı haqda informasiya yayılıb.**



Xəbəri dəqiqləşdirmək üçün **KXCP sədrinin müavini Xəzər Teyyublu** ilə əlaqə saxladıq. X.Teyyublu yeni üzvlərin qəbulu ilə bağlı etirazlarının olduğunu təsdiqləsə də, Milli Şuradan çıxdıqları barədə xəbərin yanlış olduğunu dedi. Sədr müavini qeyd etdi ki, Milli Şuranın son qərarından narazıdırlar və yeni üzvlərin quruma qəbul olunmasına etiraz edirlər: “Xatırlayırsınızsa, mayın 3-də KXCP-nin qərargahında keçirilən sessiyada Milli Şuranın genişləndirilməsi adı altında yeni üzvlər təqdim olundu. Biz o üzvlərin hamısına etiraz etmədik. Onların arasında bir-iki ziyalı və tanınmış şəxs var idi. Biz təklif etdik ki, yeni üzvlər Milli Şuraya daxil olan partiyalardan heç birinin üzvü olmasın. Bitərəf şəxslər olsun. O zaman AXCP tərəfindən təqdim edilən siyahıya etiraz etmişdik. Etirazımızdan sonra məsələ gündəlikdən çıxarıldı. Biz bildirmişdik ki, əgər Milli Şuranın tərkibi qurumda olan partiyaların üzvləri hesabına genişlənəcəksə, bunu genişlənmə adlandırmaq olmaz. Çünki Milli Şura daha geniş anlam daşıyır. Təəssüf ki, bu məsələ sanki heç müzakirə edilməmiş kimi yenidən sentyabrın 14-də keçirilən sessiyanın gündəliyinə daxil edilib. Yeni qəbul olunan üzvlər də Əli Kərimlinin rəhbərlik etdiyi qurumlara daxil olan şəxslərdir. Biz bu məsələdə Milli Şuraya uğurlar arzu edirik. Milli Şuranın tərkibinin bu cür genişləndirilməsinə ehtiyac yoxdur. Partiya üzvlərinin artırılması Milli Şurada daxili mübarizəyə səbəb olacaq. Biz mayın 3-də keçirilən sessiyada buna etiraz etmişdik, bu gün də etiraz edirik”.

**X.Teyyublu KXCP-nin bundan sonra Milli Şuradakı fəaliyyəti ilə bağlı yaxın günlərdə qərar verəcəklərini söylədi:** “Dediyim kimi, bu məsələ partiyamız tərəfindən etirazla qarşılanıb. Biz bu məsələni çox ciddi şəkildə müzakirə edəcəyik. Milli Şurada qalıb-qalmamaq məsələsi müzakirələr nəticəsində bəlli olacaq. Bu gün üçün Milli Şuranın üzvü olaraq qalırıq. Milli Şura ölkədə bir müxalif düşərgə olmalıdır. Müxalifət düşərgəsində iki qütbün olması xoş hal deyil”.

**Milli Şuranın üzvü, VHP Ali Məclisinin sədri Rafiq Manaflı isə virtualaz.org saytına açıqlamasında səslənən etiraz və narazılıqlara baxmayaraq, Milli Şuraya yeni üzvlərin qəbul ediləcəyini deyib:** “Milli Şuraya yeni üzvlərin qəbul edilməməsi qurumun dinamizmini aşağı salır. Əgər Milli Şuraya qoşulmaq istəyənlər varsa, buna imkan yaradılmalıdır. Qurumun əsasnaməsinə uyğun olaraq yeni üzvlər qəbul edilir. Bu prosesə start verildikdən sonra bunu dayandırmaq da düzgün olmaz. Yeni üzvlərin qəbul edilməsi ilə bağlı problem yaranarkən bunun həlli məsələsi Cəmil Həsənliyə həvalə edilmişdi. Bildiyim qədəri ilə də bu istiqamətdə danışıqlar aparıldı. Yeni üzvlərin qəbul edilməsinə etiraz etmək olmaz”.

R.Manaflının mövqeyi onu deməyə əsas verir ki, KXCP-nin nə deməsindən asılı olmayaraq, yeni üzvlərin qəbulu əvvəlki şəkildə davam etdiriləcək. Bu isə KXCP ilə münasibətlərin daha da kəskinləşməsinə gətirib çıxaracaq.

Xatırladaq ki, sentyabrın 14-də keçirilən sessiyada Milli Şuraya Məlahət Nəsibova *(Naxçıvanda fəaliyyət göstərən hüquq müdafiəçisi və jurnalist)*, Qənimət Zahid *(“Azadlıq” qəzetinin baş redaktoru)*, Fəxrəddin Mehdiyev *(vəkil)*, Vahid Məhərrəmov *(iqtisadçı)*, Məhəmməd Talıblı *(iqtisadçı)*, Yalçın Qəhrəmanov *(Ukraynada diaspor fəalı)*, Araz Gündüz *(yazıçı-tərcüməçi)* və İsa Sadıqov *(Azərbaycan ordusunun keçmiş zabiti, polkovnik)* üzv qəbul ediliblər. KXCP bu şəxslərin əksəriyyətinin AXCP-yə bağlı olduğunu bəyan edib.

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 233 (5942) 18 sentyabr 2014

**Sentyabrın 10-da Türkiyə Böyük Millət Məclisi TANAP (Transanadolu Təbii Qaz Kəməri) layihəsi üzrə Türkiyə hökumətinin üzərinə düşən öhdəliklərin siyahısını təsdiq edib. Beləliklə, Türkiyə təbii qaz daşıması üçün Eskişehirdə 79, Trakyada 102 dollar ödəyəcək. Xəbəri "Hürriyet" qəzeti yayıb.**




# Türkiyə mediası TANAP-ı "vurur"

## Azərbaycan qazını dünyanın ən bahalı təbii qazı adlandıran "Hürriyet"in iddiaları haradan qaynaqlanır?

Yada salaq ki, TANAP-la Azərbaycanın "Şahdəniz-2" yatağından çıxarılan təbii qaz Avropaya daşınacaq. 1800 kilometrlik boyu xətti Gürcüstandan keçərək Türkiyəyə uzanacaq. TANAP-la Avropaya ildə 10 milyard kubmetr qaz daşınacağı proqnozlaşdırılır. Tərəflər arasındakı razılaşmaya görə, ilkin mərhələdə daşınan qazın 6 milyard kubmetrini Türkiyə daxili ehtiyacları üçün alacaq. Bununla da Türkiyə təbii qaz ehtiyacını ödəyə biləcək.

Türkiyənin energetika sahəsi üzrə bəzi ekspertləri isə deyir ki, TANAP-ın reallaşması Türkiyəyə heç də ucuz başa gəlməyəcək.

Onların fikrincə, Azərbaycanın təbii qaza tətbiq etdiyi qiymətlər astronomikdir. Türkiyə Böyük Millət Məclisində artıq təsdiqlənən sənədlərə görə, BOTAŞ Eskişehir çıxış nöqtəsində qəbul etdiyi qazın hər kubmetri üçün 79, Trakya çıxış nöqtəsində qəbul etdiyi qazın bir kubu üçün 102 dollar ödəyəcək. Türkiyə ekspertləri deyir ki, BOTAŞ öz daşıma sistemində müəyyən təkmilləşdirmələr apararaq "Şahdəniz" qazını Avropaya daşısaydı, hər kubmetrin qiyməti Türkiyə büdcəsinə cəmi 13 dollara başa gələ bilərdi.

Bu fikri irəli sürənlər iddia edir ki, TANAP rentabelli olmayacaq.

"Hürriyet" yazır ki, qaz daşımaları məsələlərində ikili fikir var. Bir sıra mütəxəssislər iddia edir ki, energetika sektoru üzrə layihələrə sadəcə iqtisadi işbirliyi sazişləri kimi yanaşmaq doğru deyil. Bu strateji planlamalar bölgələrin geosiyasi durumuna birbaşa təsir edən faktorlardır. Bəzi uzmanlar isə düşünür ki, Azərbaycan Avropanın ehtiyaclarının nəzərə alaraq təbii qazına süni qiymətlər qoyur.

Onu da vurğulayaq ki, «Transaanadolu» qaz kəmərində payın 30 faizi Türkiyənindir. Bu isə o deməkdir ki, gəlirlərin də 30 faizi yenidən Türkiyə büdcəsinə qayıdacaq. Deyilənləri rəqəmə çevirsək, Türkiyə təbii qazın hər kubmetri üçün ödədiyi 90 dolların 27 dollarını geri alacaq. Ancaq bu halda belə Türkiyə ekspertləri Azərbaycanın öz qazına son dərəcə yüksək qiymət qoyduğuna əmindir. "Hürriyet" yazır ki, əgər Rusiya 2015-ci ildə təbii qazın qiymətlərinə endirim etsə, İran da bazar qaydalarına uyğun olaraq təbii qaz qiymətlərini endirməyə məcbur olacaq və bu halda "Şahdəniz-2" yatağından çıxarılan qaz dünyanın ən bahalı təbii qazı olacaq. Bu ehtimal isə məqalə müəllifinin fikrincə, son dərəcə yüksəkdir.

**Türkiyə tərəfi narahat edən məqamlardan biri də TANAP-ın tikintisindəki xərclərin şişirdilməsidir. Ekspertlər iddia edir ki, burada da rəqəmlər gerçəklikdən uzaqdır:** "Boru xəttinin tikinti dəyərinin 12 milyard dollara yüksəlməsi mübahisəli məsələdir. Çünki borular Türkiyədən alınır, işçilər Türkiyədəndir. Bu halda 12 milyard dollar kimi nəhəng bir maliyyə nəyə xərclənəcək? BOTAŞ bu kəməri dəfələrlə ucuz qiymətə çəkə bilərdi. BOTAŞ öz boru xətlərinə paralel borular çəkər, sadəcə bir neçə məntəqələrdə yeni kompressor stansiyaları qurulmaqla doğal qaz Avropa istiqamətinə daşına bilərdi. Əgər 12 milyard dolların 30 faizi, yəni 3,6 milyard dollar BOTAŞ-a yatırılsaydı, şirkət TANAP-dan daha mükəmməl daşıma sistemi qura bilərdi. Əldə etdiyimiz bilgilərə görə, BOTAŞ bu variantı Azərbaycan tərəfə təklif edib. Ancaq Azərbaycan tərəfi "böyük yatırım qoyacağıq və bu yatırımları Avropadakı tələbatçıların imkanları ilə geri qaytaracağıq" fikri ilə Türkiyə tərəfi razı salmağı bacarıb".

Ortada xərclərin şişirdilməsi və təbii qazın qiymətinin həddən artıq baha olması haqqında iddialar olsa da Türkiyədə bəlli bir kəsim, xüsusən hökumətə yaxın şəxslər TANAP-ın ölkəyə böyük fayda verəcəyini düşünür. Energetika və Təbii Qaynaqlar Nazirliyindəki mənbə mediaya açıqlamasında bildirib ki, bu kəmər Türkiyə üçün həyati əhəmiyyətlidir. Çünki 2018-ci ildə Türkiyədə ciddi qaz böhranı yarana bilər. Bu zaman Türkiyə artan ehtiyaclarını TANAP-la daşınan "Şahdəniz" qazı hesabına qarşılamaq iqtidarında olacaq.

**Türkiyə mediasında səslənən fikirləri "Yeni Müsavat"a şərh edən Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban isə deyir ki, səslənən iddialar Türkiyə ilə Azərbaycanın uğurlu enerji layihələrinə zərbə vurmaq istəyən dairələrdən gəlir:** "Türkiyə mediasında Azərbaycanla ortaq enerji layihələrinin Türkiyəyə "zərbələr və ziyanlar" vurması mövzusunda ara-sıra yazılar dərc olunur. Ancaq çox zaman bu iddialar konkret faktlara dayanmayan, eyni zamanda bu projelərin əleyhinə olan dairələrin beyninin məhsulu olur. Məqsəd isə aydındır, türk dövlətlərinin irimiqyaslı layihələrini gözdən salmaq. Bakı-Tbilisi-Ceyhan layihəsinin tikintisi başlamazdan Türkiyəyə enerji layihələri çərçivəsində səfərlər edirəm, müxtəlif qrupların hansı maraqları olduğundan xəbərdaram. Onu deyə bilərəm ki, çox zaman informasiya qıtlığından belə məqalələr mediada özünə yer tapır. Bakı-Tbilisi-Ceyhan layihəsi ilə bağlı da Türkiyənin aparıcı media qurumları tənqidi tonda yazırdılar, kəmərin Türkiyəyə xeyir yox, ziyan gətirəcəyini deyirdilər. Halbuki həmin boru kəmərinin fəaliyyətə başlaması ilə əlaqədar BOTAŞ dövlət şirkəti özünün törəmə bir şirkətini - BİL-i yaratdı. BİL yalnız BTC ilə məşğul olacaqdı. Sonradan BOTAŞ daşıma xərcləri üçün ayrılan vəsaitlərin az qala yarısını ana şirkətə götürüb bəyan etdi ki, BİL-in xərci borcunu ödəmir. Bu iddiaların cəmiyyətdə yerimməsi üçün medianın imkanlarından geniş istifadə edildi. O zaman məhz Azərbaycan tərəfinin işə qarışmasından sonra Türkiyə tərəfi üçün nəqletmə tarifləri müqavilə şərtlərində nəzərdə tutulmadığı halda artırıldı. Çünki Azərbaycan Türkiyəyə bir strateji tərəfdaş kimi baxır, onunla hələ neçə enerji layihəsi üzərində birgə çalışacağını artıq planlaşdırmışdı. Bu baxımdan indi "Hurriyet" qəzetində dərc edilmiş məqaləni sadəcə 10 sentyabrda Böyük Millət Məclisi tərəfindən TANAP layihəsinin təsdiqi zamanı səsləndirilməsi, ortaya çıxan rəqəmlərin məsələnin reallığına varmadan səthi təhlili, guya Azərbaycan-Türkiyə birgə enerji layihəsinin əslində ölkə maraqlarına zərər vurması haqda söylənən iddialar əslində reallıqdan kənardır".



**İlham Şaban:** "Türkiyə ilə Azərbaycanın uğurlu enerji layihələrinə zərbə vurmaq istəyən dairələr var"

**Məqalədə səslənən rəqəmlərə gəlincə, İlham Şaban deyir ki, həmin rəqəmlər reallıqdır:** "BOTAŞ-ın daşıma xərcləri haqqında yazılanlar doğrudur. Ancaq astronomikdirmi? Bir məsələyə diqqət yetirmək lazımdır. 100 km məsafəyə 1000 kubmetr qazın daşınması təqribən 5 dollara başa gəlir. Bu, ilk baxışdan baha görünə bilər. Çünki Rusiya "Qazprom"u Ukrayna ərazisindən daşımalarına ötən il 3,08 dollar qiymət qoymuşdu. Bu yerdə deyim ki, rəsmi Kiyev bu tarifin artırılmasında israrlıdır. Bu aşağı tarif o boru kəmərlərinə aiddir ki, onun 100 faiz kapital xərcini boru keçən ölkə çəksin. TANAP-da isə 70 faiz xərclər boynundadır. Təbii, boruya yatırılan kapitalın geri qaytarılması məsələsi də gündəmdədir. Məqalə müəllifi anonim ekspertlərə əsaslanıb yazır ki, TANAP-ın dəyərinin 30 faizi həcmində xərclə, yəni 3,6 milyard vəsaitlə BOTAŞ öz sisteminə investisiya etsəydi, daha artıq nəql gücü əldə etmiş olardı. Bu, tamamilə cəfəngiyyatdır. Müəllif BOTAŞ-ın magistral kəmərlərinin buraxıcılıq gücünü öyrənsəydi, ortaya belə bir iddia çıxmazdı. Heç şübhəsiz 3 milyard dollar yatırımla BOTAŞ öz sisteminin modernizasiya səviyyəsini maksimum 5-6 milyard kub metr artıra bilərdi. Ona görə ki, BOTAŞ-ın mövcud sistemi heç də yeni deyil və 2019-cu ildə "Şahdəniz-2" layihəsində çıxacaq qazı və sonradan 2021-ci ildə onun layihə gücü 16 milyard kub metrə çatmasına qədər, yəni yaxın 9 ildə *(TANAP müqaviləsi 2012-ci ildə imzalanıb)* getdikcə aşılanacaqdı. Çünki bu, texnikadır və onun nasos stansiyalarından tutmuş, siyirtmələri və digər xidmət obyektləri zaman keçdikcə layihə gücünü itirir, onların saz vəziyyətdə saxlanılması isə kapital xərcləri tələb edir. Bu baxımdan da hələ 2011-ci ildə SOCAR, bp və BOTAŞ-ın birgə apardıqları texniki-iqtisadi dəyərləndirmə onu göstərdi ki, Türkiyə daxilində istifadə olunacaq 6 milyard qazın əsas hissəsi belə Türkiyənin qərbinə daşınmalıdır. BOTAŞ 12 milyard kubmetrə qədər qazı problemsiz daşıya bilərdi. Hətta onun sistemini modernize edib Avropaya qaz daşımaq mümkün idi. Ancaq bu zaman ortaya ikinci məsələ çıxırdı. Artıq 2022-ci ildə Azərbaycan yeni həcmləri Avropaya göndərməyi planlaşdırır, 2026-cı ildə isə başqa istiqamətdə daha iri həcmləri. BOTAŞ bu həcmi qəbul edib ötürməyə hazır deyildi. Yəni Türkiyə ərazisində yeni bir magistral kəmərin tikintisi qaçılmaz idi".

**İlham Şabanın fikrincə, BOTAŞ-ın TANAP kəmərini tək tikmək üçün də iqtisadi imkanları yox idi. Azərbaycan tərəfin yatırımları olmadan bu, mümkün deyildi:** "Cənubi Qafqaz Kəmərinin genişləndirilməsi layihəsi çərçivəsində tikiləcək yeni magistral qaz kəməri *(Səngəçal terminalı yaxınlığından Gürcüstan sərhədinədək - 400 km uzunluğunda)* 3 milyard dollara başa gələcək. Onu da yerli işçi qüvvəsi tikəcək. 3,6 milyarda buraxıcılıq gücü ildə 16 milyard kubmetr olan və sonradan genişləndirilə bilən boru xətti tikmək mümkün deyil.

Müəllif bildirir ki, guya Azərbaycan qazı Türkiyədə ən bahalı qaz olacaq, çünki qiyməti 400 dollar çıvarındadır. 2019-cu il üçün isə Rusiya və İran qazının qiyməti dünya bazarında enəcək. Məqalə müəllifinin bu sahədə də savadı yetərli deyil və aydın görünür ki, o, Türkiyə Böyük Millət Məclisində ratifikasiya edilən sənədlə əslində tanış deyil. Tanış olsaydı bilərdi ki, heç bir enerji sazişində konkret rəqəm göstərilmir. Qiymətlərlə bağlı konkret formul olur və ona əsasən də qazın qiyməti hər rüblükdə dəyişir".

**İlham Şaban deyir ki, TANAP layihəsi də BTC kimi uğurlu layihələrdən olacaq, bölgənin iqtisadi qüdrətinin artırılmasına xidmət edəcək.**

❑ **Aygün MURADXANLI**



# Təhsilin rasionallaşdırılması

Zamin HACI
zaminhaci@gmail.com

## Yaxud milli əsgər rasionu

**Milli problemlərimizdən biri artıq cəbhə xətti səviyyəsində öz həllini tapıbdır, xəbəriniz olsun. Cəsur müdafiə nazirimiz Zakir müəllimin bilavasitə rəhbərliyi altında milli xörəyimiz dolma erməni işğalçılarının əlindən alınmışdır.**

Bildiyimiz kimi, erməni yaramazlar həmişə iddia edirdilər ki, guya dolma onların xörəyidir. Ancaq NATO-nun NASA-ya, onun da Müdafiə Nazirliyimizdəki gizli mənbələrə istinadən verdiyi xəbərə görə *(məlum müşavirədən sonra idarə alınmaz qaladır, ordan nəinki xəbər sızır, heç üstündən quş uçmur)*, təzəlikcə əsgərlər üçün hazır dolma yeməkləri istehsal edilibdir, şəxsən müdafiə naziri bu yeməklərə baxıb "nuş olsun" deməmişdir.

Xəbərin şəkli var idi *(çəkəni öldürüblər sonra)*, ordan görünürdü ki, müdafiə naziri Zakir müəllim şəxsən dolmalara nəzarət edir, o cümlədən dolma konservləri bir neçə çeşiddə hazırlanaraq əsgərlərimizin qida rasionuna daxil edilibdir. Bunlardan kələm və yarpaq dolmasını, o cümlədən el arasında "üc bacı" adıyla tanınan badımcan, bibər və pomidor dolmasını qeyd edə bilərik.

Çox şad xəbərdir. Bəs necə, ermənilərin bacarığı varsa onlar da dolma konservi düzəltsin. Düzəldə bilməzlər, çünki bu, bizim yeməkdir. İnşallah, yaxın gələcəkdə respublika rəhbərliyinin diqqət və qayğısı sayəsində "Sarı gəlin" konservlərinin də hazırlanması prosesi tənzimlənəcəkdir. Biz düşməni öncə elm, bilik, ziya, nur, savad, aspirantura, BDU, ATU, Sabir adına pedaqoji texnikum, Azərbaycan Yazıçılar Birliyi səviyyəsində məğlub etməliyik. Ondan sonra lazım gəlsə, silah yolu ilə. Hərçənd bu gedişlə lazım gəlməyəcəkdir. Qoy cəbhə xəttində əsgərimizin açdığı dolma konservinin qoxusu yaramaz düşmənin burnuna dəysin... Mələşə-mələşə hamısı bizim tərəfə keçəcəkdir, əllərində də boşqab.

Ümumiyyətlə, sevindirici haldır ki, son dövrlərdə milli hakimiyyətimiz bütün problemlərə, cəmiyyəti narahat edən məsələlərə milli mentalitetimizlə, dinc yolla, sülh şəraitində yanaşır. Kimsə nədənsə narazılıq edəndə onu vurub öldürmürlər, zindana salırlar.

Elə götürək təzə təhsil nazirini. Biz yeri gəlmişkən, qabaqkı təhsil nazirini heç götürə bilməzdik, indiki isə şümal oğlandır, götürmək asandır. Mikayıl müəllimin təhsil sistemində apardığı islahatlardan biri "təhsilin rasionallaşdırılması" adlanır. Sitat: "Təhsil Nazirliyindən APA-nın sorğusuna verilən cavabda bildirilib ki, rasionallaşdırma tədbirləri çərçivəsində Təhsil Nazirliyinin müvafiq əmrlərinə əsasən, Bakı şəhərindəki 189 və 190 nömrəli, 5 və 292 nömrəli tam orta məktəblər birləşdirilib, 88 nömrəli tam orta məktəb isə ləğv olunub". Sitatın sonu.

Rasionallaşdırma nə deməkdir? Bu sözün mənası loru dildə desək, ağıllı olmaqdır. Bizdə təhsilin rasionallaşdırılmasına bir neçə məktəbi birləşdirib, bəzilərini də bağlamaqdan başlayıblarsa, bu o deməkdir ki, Mikayıl müəllim doğru yoldadır! Doğru yolun başlanğıcındadır! Azərbaycan məktəbləri elə durumdadır ki, nə qədər çoxunu bir-birinə qatsan, nə qədərini bağlasan, millətə o qədər xeyirdir. Əvəzində repetitorlara, zirzəmi və tövlələrdə açılan təhsil-tədris kurslarına üstünlük verilməlidir. Məktəb binaları ancaq 15 sentyabrda və 31 mayda gül-çiçəklə, haray-hurreylə, videokamera ilə gedib klip çəkilişləri aparmaq üçün saxlanmalıdır. O da hər rayonda bir məktəb olsa bəsdir.

Yas yerlərində ehsanların sadələşdirilməsi, təhsilin rasionallaşdırılması, ordu mətbəxinin milliləşdirilməsi bizə əsas verir ki, respublikamızın parlaq gələcəyinə olan ümidlərimiz daha da rövnəqlənsin. Yazını elə bu xoş sözlərlə bitirirəm, arzu edirəm əsgərlərimiz gələn Novruz bayramında İsa bulağında dolma yesinlər!

---

### Məmmədovların ailə biznesinə görünməmiş zərbə

# Anar Məmmədovun şirkətinin lisenziyası ləğv edildi

## Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi "Qarant İnvest"in broker fəaliyyətinə qadağa qoydu; ölkənin ən qüdrətli nazirlərindən birinin oğlunun xarici bazarı bağlandı; hökumətin bu addımı haqda sensasion iddialar "Yeni Müsavat"da



**Azərbaycanın ən qüdrətli oliqarxlarından olan nəqliyyat naziri Ziya Məmmədovun ailə biznesinə ciddi zərbə vurulub. Əvvəllər "ZQAN Holdinq" olan, sonra isə adını dəyişərək "Qarant-Holdinq" adlandırılan şirkətə daxil "Qarant-İnvestin" lisenziyası dayandırılıb. Bu həm də faktiki olaraq şirkətin də fəaliyyətinin dayandırılması deməkdir...**

Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin yaydığı məlumatda bildirilib ki, "Qarant İnvest" MMC-nin broker fəaliyyətinin göstərilməsi üzrə xüsusi icazə-lisenziya sentyabrın 16-dan ləğv edilib. "Qarant İnvest"in broker fəaliyyəti üzrə lisenziyasının hansı səbəblərdən geri alındığı göstərilmir.

Qeyd edək ki, broker fəaliyyəti müştərinin hesabına tapşırıq və ya komisyon müqaviləsi əsasında müvəkkil və ya komisyonçu kimi fəaliyyət göstərən, həmin müştərinin mənafeyi üçün qiymətli kağızlarla alqı-satqı əqdlərinin bağlanması üzrə qiymətli kağızlar bazarında peşəkar fəaliyyətdir. Broker fəaliyyəti Mülki Məcəllənin 992-1.7. bəndləri ilə tənzimlənir.

"Qarant İnvest" şirkəti "Qarant Holdinq"in tərkibində 2011-ci ildə yaradılıb. Elə həmin ilin noyabrının 24-də Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi broker fəaliyyətinin göstərilməsinə dair "Qarant İnvest"ə 5 illik broker lisenziyası təqdim edib. "Qarant İnvest" lisenziya alandan sonra bir sıra investorlara xarici şirkətlərin səhmlərini almaqda, habelə onların pullarının İsveçrə banklarında yerləşdirilməsində kömək edib. "Qarant İnvest" Azərbaycanda fəaliyyəti müstəsna olaraq xarici investisiyalardan ibarət olan yeganə lisenziyalı broker şirkəti olub.

"Yeni Müsavat"ın Vergilər Nazirliyinin kommersiya hüquqi şəxslərin dövlət reyestrindən əldə etdiyi məlumata görə, "Qarant İnvest" MMC 11 avqust 2011-ci il tarixində qeydiyyata alınıb. Onun yeganə təsisçisi kimi adı ictimaiyyətə tanış olmayan Məmmədrəhim Əmirçoban oğlu Həsənov göstərilib. 2011-ci il məlumatlarında cəmiyyətin nizamnamə kapitalının ilkin olaraq 10 000 manat olduğu əksini tapıb. 2011-ci il məlumatlarında "Qarant İnvest" MMC-nin direktoru kimi yenə də adı geniş ictimaiyyətə tanış olmayan Rauf Nizami oğlu Əliyev olduğu bildirilib. Cəmiyyətin Müşahidə Şurasının üzvləri arasında Vaqif Əmirçoban oğlu Həsənovla yanaşı *(böyük ehtimalla təsisçinin qardaşıdır)*, Elnur Nazim oğlu Abdullayev və Xəyal Kamran oğlu Şərifzadə də var. 2012-ci ildə şirkətin yaranmasının 1 illiyi ilə bağlı təşkil olunan mərasimdə isə "Qarant İnvest"in direktoru kimi Fərid Səttarov hesabat verib. Aldığımız məlumata görə, F.Səttarov "Qarant-İnvest"in yaradılmasında iştirak edib və əvvəl direktor müavini olub. Son aylarda da quruma məhz onun rəhbərlik etdiyi söylənilir.

Heç şübhə yoxdur ki, xaricdə mülkiyyət məsələləri və investisiya kimi çox vacib və ən əsası konfendensiallıq tələb olunan bir qurumu Məmmədovlar ən yaxın adamlarına etibar edə bilərdilər.

"Qarant-İnvest"in lisenziyasının iki il öncədən dayandırılması səbəbləri barədə ətraflı məlumat almaq üçün şirkətin 012-499-79-69 nömrəsinə dəfələrlə zəng etsək də, dəstəyi qaldıran olmadı.

Broker bazarına böyük iddialarla daxil olan "Qarant-İnvest"in lisenziya müddətinin başa çatmamış ləğv edilməsinin əlbəttə ki, ciddi səbəbləri var. Azərbaycan kimi beş-on nəfərdən asılı ölkələrdə bu cür "ləğvetmələrin" bazar iqtisadiyyatı ilə heç bir əlaqəsi olmur, burada əsas məsələlər siyasi qərarlarla həll edilir. Ona görə də nə Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin, nə də "Qrant-İnvest"in buna izahat verəcəyini gözləmək sadəlövhlük olardı. Bəs nə baş verib ki, hakimiyyət belə bir addım atmalı olub?

Burada diqqət çəkən əsas nüans lisenziyanın məhz müddəti başa çatmamış ləğv edilməsidir. Lisenziya o vaxt ləğv edilir ki, bunun üçün ciddi səbəblər olur. Bu ciddi səbəblər sırasında şirkətin özünü doğrultmaması da, bazarda fırıldaqlarının üstünün açılması da ola bilər. Məsələn, bu səbəblər sırasında xaricdən mülk alan Azərbaycanın məşhur isimlərindən birinin sonradan qiymətdə aldadılmasının olması da mümkündür. O da mümkündür ki, "Qarant-İnvest" hansısa məmur-oliqarxın pullarını banklarda "yandırıb".

Başqa bir mənbə isə "Yeni Müsavat"a daha bir sensasion versiya üzərində araşdırma təklif edib. Qaynağımız deyib: "Ola bilsin ki, Anar Məmmədovun şirkəti xarici banklara pul yerləşdirən və ya mülk alan varlıların adlarını gizli saxlamaqla bağlı öhdəliyi pozub. "Ya da bu adamlara qarşı yuxarılara ötürülən kompromatlar da istifadə edilib".

Virtualaz.org saytı bu mövzu ətrafında olan suallara cavab axtararkən belə bir versiya üzərində dayanıb: **"Bəs indi hansı səbəblərdən Azərbaycan oliqarxlarının pullarını xarici banklarda yerləşdirməkdə və xarici şirkətlərin səhmlərinə yatırmaqda vasitəçilik edən "Qarant İnvest"in yolunu kəsdilər? Görəsən, şirkət hansı səhvə yol verib, yaxud hansı qüdrətli oliqarxın pullarını batırıb?".**

Z.Məmmədov təbii ki, sıradan nazir deyil və onun hakimiyyətdə mövqeyi hələ də çox güclüdür. Onun oğlu A.Məmmədov da ailənin nəhəng biznesini təkcə öz ağlı və gücü ilə idarə etmir, burada əsas faktor Z.Məmmədovdur. Amma aydındır ki, "Qarant-İnvest"in lisenziyasının ləğv edilməsində əsas zərbə özünü "uğurlu biznesmen" və "hakimiyyətin xaricdə uğurla lobbisti" hesab edən A.Məmmədova dəyib. Azərbaycan-Amerika Alyansı vasitəsilə ABŞ-da lobbi və əlbəttə ki, ticari fəaliyyətlə məşğul olan, gördüyü işləri reklam etməyi də sevən nazir oğlunun "xaricə bazarının və yolunun bağlanması" qərarının arxasında duranlar kimdirsə, onlar Z.Məmmədovdan daha qüdrətlidir demək. Çünki "qiymətli komitə" heç vaxt bu cür qərarı təkbaşına və ya bazara uyğun verə bilməzdi.

Yeri gəlmişkən, nazir oğlunun rəhbərlik etdiyi "Qarant-Holdinq" son aylar "qara zolağa" düşüb. İyun ayında "Qarant Holdinq"ə daxil olan "Qarant Sığorta"nın hüquqşünası Natəvan Əliyeva öz mənzilində öldürüldü. Bundan sonra avqust ayında "Qarant-Holdinq"in Müşahidə Şurasının üzvü, A.Məmmədovun bibisi oğlu Emil Ələsgərovun xanımı Günay Ələsgərova avtomobil qəzasında həlak oldu. G.Ələsgərova A.Məmmədovun əmisi qızı idi.

Sonda "Qarant-İnvest"in bazardan çıxarılmasına dair daha bir qısa araşdırma da apardıq. Məlum oldu ki, "Qarant-İnvest"in adı artıq rəsmi saytdan yığışdırılıb. Hazırda qiymətli kağızlar bazarında 13 broker MMC fəaliyyət göstərir. Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin saytında "BoB Broker", "Brokdil.az", "Çelsi-Kapital", "Texnika Kapital Menecment", "Unicapital", "Yapi Kredi İnvest", "İnrternesşnl Tranzakşn Sistem", "Paşa-Kapital", "PSG-Broker", "İnvest.AZ", "Xalq Kapital" və "AzFinance" MMC-lərin adları var. Bu brokerlər içərisində də Z.Məmmədovun və oğlunun bazarını bağlamaq gücündə olan var...

**Mediaya savaş açan, "Yeni Müsavat" qəzetinin baş redaktorunu tutdurmaq istəyən, adları müxtəlif qalmaqallarda hallanan Məmmədovlar ərəsinın sonunun çatdığı barədə informasiyalar dolaşır. Mümkündür ki, bu, Məmmədovlara ilk siqnaldır. Bunun davamı mütləq olacaq.**

**Bu barədə araşdırmalarımızı və yeni xəbərlərimizi izləyin.**

**Xəbər xidməti**

YENİ MÜSAVAT
N 233 (5942) 18 sentyabr 2014

**“Mən 1995-ci ildə Vaşinqtonda Pentaqonun yüksək vəzifəli generalı ilə görüşdüm. Həmin görüşdə xəritəni göstərərək dedim ki, əgər Abşeronda Amerikanın hərbi bazası olsa, onda Rusiyaya, İrana, Əfqanıstana, Xəzər hövzəsinə, hətta Çinin Qərbinə ən yaxın yolu əldə etmiş olacaq. Soruşdum ki, elə isə siz nə səbəbə bura gəlmək istəmirsiniz?”**

# Vəfa Quluzadə Pentaqon rəsmisi ilə məxfi danışığın detallarını açıqladı

## “Azərbaycan ordusunun səviyyəsini NATO ordusu səviyyəsinə qaldırmaq üzərində iş aparılır...”



**Sabiq dövlət müşaviri, politoloq Vəfa Quluzadə** “Yeni Müsavat”a bu sensasion məlumatı NATO bazalarının Azərbaycanda yerləşdiriləcəyi barədə məlumatı şərh edərkən açıqladı. Qeyd edək ki, Türkiyənin “Todays Zaman” qəzeti NATO-nun Azərbaycanda yeni hərbi bazalar yaratmaq planı barədə məlumat yayıb. (“Azadlıq”) Məlumatda bildirilir ki, Ukrayna və Rusiya arasında gərginliyin artması, həmçinin regiondakı qeyri-stabillik Xəzər dənizinin neft resurslarının, eləcə də çox əhəmiyyətli neft-qaz marşrutlarının təhlükəsizliyini təhdid altında qoyur.

“İndi əsas məsələ odur ki, regiondakı təhlükəsizlik vakuumunu kim dolduracaq. Bir sıra ekspertlər hesab edir ki, Rusiya və Ukrayna arasındakı konflikt NATO-nun Azərbaycanda yeni hərbi bazalarının yaradılması ilə nəticələnə bilər. Amma NATO-nun Cənubi Qafqazda genişlənməsi məsələsində Rusiyanın açıq və birmənalı mövqeyini nəzərə alan bir çox analitiklər buna şübhə edir”, - deyə materialda bildirilir.

Materialda NATO-nun keçmiş baş katibi Xavyer Solananın “Alyans bu regiona qoşun yerləşdirmək barədə düşünmür” deməsi də xatırlanıb. Lakin bölgədəki oyunçular, konkret olaraq, Azərbaycan NATO-nun boru kəmərlərinin təhlükəsizliyində maraqlı olduğunu gizlətmir.

Qeyd edək ki, Rusiya-Ukrayna hadisələrinin gedişində Azərbaycan Avropa üçün alternativ enerji mənbəyi hesab olunur və bu, bir neçə dəfə rəsmən bəyan edilib. Ermənistandan isə müharibə başlayacağı halda neft borularının hədəfə alınacağı barədə hədələr səslənib. Təbii ki, Qərb belə hədələrə laqeyd qala bilməz. Odur ki, son zamanlar intensivləşən Türkiyə-Azərbaycan hərbi əlaqələrinin arxasında həm də NATO-nun iradəsinin dayandığını güman etmək üçün ciddi əsaslar var.

**V.Quluzadə şübhə etmir ki, Azərbaycanla Amerikanın hərbi əməkdaşlığı var:** “Bunu Rusiya, Çin, İran da bilir. Hamıya açıq-aydındır ki, Azərbaycanın bir çox hava limanları Qərbin böyük yük təyyarələrini qəbul edəcək səviyyədə qurulub. Yəni onlar Qərb tərəfindən tam yeni infrastruktur halına gətirilib. Bu da ona imkan yaradır ki, əgər ABŞ-a Azərbaycanda bir əsgəri baza yaratmaq ehtiyacı olsa, çox qısa müddətdə o əsgəri bazanı quracaqlar. Keçmişdə baza yaradılırdı, orda əsgərlər, zabitlər hərbi şəhərcikdə ailə-uşağı ilə yaşayırdı. Ancaq indi bu məfhum tamam dəyişib. Baza lazım olan müddət üçün yaradılır, sonra da çəkilib gedir. Bu gün Azərbaycan ordusunun səviyyəsini NATO ordusu səviyyəsinə qaldırmaq üzərində iş aparılır. Bu işlər Türkiyə ilə də, Amerika ilə də aparılır”.

Politoloqun sözlərinə görə, NATO bazalarının həm Naxçıvan ərazisində, həm də Azərbaycanın digər ərazilərində yerləşdirilməsi mümkündür: “Mən o vaxt da demişdim ki, Amerikanın İncirlikdəki təyyarələrini Abşerona köçürmək olar. Hava limanlarının hazır olması səbəbindən burda problem yoxdur”.

Bu gün Türkiyə İŞİD-in məhv edilməsi əməliyyatları ilə bağlı ABŞ-ın dəstək müraciətinə müsbət cavab verməyib. Bu, yeni situasiya yarada, İncirlikdəki bazanın Azərbaycana köçürülməsinə səbəb ola bilərmi?

V.Quluzadə: “Mən inanmıram ki, Türkiyə ilə Amerika arasında bu müttəfiqlik yoxa çıxsın. Mümkün deyil. Müttəfiqlik münasibətlərinin olması həm Türkiyə, həm də Amerikanın maraqlarındadır. Amma Türkiyə müstəqil dövlət olduğuna görə öz milli maraqlarından çıxış edir, bu da Amerikanın xoşuna getməyə bilər. Ancaq görək İncirliyin alternativi Azərbaycan ola bilərmi? Rusiya məsələsi həll olunmayana qədər Azərbaycan daim şimaldan təhdid görəcək. Odur ki, Azərbaycan Amerika təyyarələrinə öz ərazisindən uçmağa imkan verməyəcək”. Bəzi ekspertlər bu qənaətdədir ki, NATO-nun Azərbaycanda mövcudluğu Rusiya təhlükəsindən xilas yoludur. Bu mənada Baltikyanı ölkələrin NATO-nun bir hissəsinə çevrilməsindən sonra Kremlin təhdidlərindən xilas olduqları nümunəsi gətirilir. Ancaq V.Quluzadə deyir Azərbaycan o zaman bu istiqamətdə addım ata bilər ki, Rusiya təhlükəsi gəlib onu qabaqlamasın. Reallıq budur ki, Rusiya üçüncü dünya müharibəsini - soyuq müharibəni uduzub. Hazırda dördüncü dünya müharibəsi gedir, onun da nəticəsi olacaq".

❑ **E.PAŞASOY**

# “The New York Times”də Qarabağ mübahisəsi

The New York Times
Expect the World®

**İsrailin Hayfa Universitetinin professoru, ABŞ-ın Corctaun Universtetinin araşdırmaçısı Brenda Şafferin Qarabağ münaqişəsinə dair bugünlərdə “The New York Times” qəzetində dərc edilmiş və geniş rezonansa səbəb olan məqaləsinə münaqişə tərəflərinin Vaşinqtondakı səfirlikləri reaksiya verib.**

Virtualaz.org saytı xəbər verir ki, dünən qəzet Ermənistanın ABŞ-dakı səfirliyinin mətbuat katibi Anna Nağdalyanın və Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanovun məqalə ilə bağlı redaksiyaya göndərdikləri məktubları dərc edib.

Bu reaksiyalardan məlum olur ki, Ermənistan səfirliyi Brenda Şafferin Qarabağda avqustun əvvəllərində baş vermiş şiddətli atışmaların və erməni qüvvələrinin qəfil diversiya hücumlarının arxasında Rusiyanın dayana biləcəyinə dair fikirlərinə etiraz edir.

Brenda Şaffer yazmışdı ki, avqustun əvvəllərində prezident İlham Əliyevin və müdafiə naziri Zakir Həsənovun ölkədə olmadığı bir vaxtda Ermənistan ordusu üç istiqamətdən Azərbaycan ordusunun mövqelərinə hücum edib. Müəllifin qənaətinə görə, bu hücum Rusiya ilə razılaşdırılmadan baş tuta bilməzdi.

Brenda Şafferin fikrincə, Rusiyanın məqsədi Qarabağ münaqişəsi ətrafında gərginliyi artırmaq və rus qoşunlarının sülhməramlılar adı altında bölgədə yerləşdirilməsinə nail olmaqdır. O, prezident Vladimir Putinin avqustun 10-da Soçidə Azərbaycan və Ermənistan prezidentləri ilə rus qoşunlarının Qarabağa yerləşdirilməsinə razılıq verilməsi məsələsini müzakirə etdiyini də vurğulamışdı.

Ermənistan səfirliyinin mətbuat katibi isə Brenda Şafferin “Rusiyanın ələ keçirəcəyi növbəti ərazi” adlı məqaləsində yer alan “bəzi məqamlara” aydınlıq gətirmək istədiyini bildirərək yazır ki, Minsk Qrupunun həmsədr ölkələrinin prezidentləri Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair səylərini bir-biri ilə əlaqələndirirlər. Prezidentlər indiyədək bu məsələ ilə bağlı konsolidasiyalı mövqe nümayiş etdiriblər.

**“Sülhməramlı əməliyyatlar danışıqlar paketinin ayrılmaz hissəsi olub və heç vaxt ayrıca müzakirə edilməyib”** - deyə Nağdalyan bildirir.

Ermənistan səfirliyinin mətbuat katibi təmas xəttində baş vermiş son toqquşmalara görə Azərbaycanı günahlandırır.

Azərbaycanın Vaşinqtondakı səfiri Elin Süleymanovun məktubunda isə deyilir ki, Brenda Şaffer Birləşmiş Ştatların Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasında daha fəal iştirakına çağırmaqda haqlıdır.

“Bununla belə, o, bu situasiyada real təcavüzkarı, yəni Ermənistanı dəqiq göstərmir” - deyə səfir yazır.

E.Süleymanovun fikrincə, xanım Şaffer həmçinin Ermənistanla Azərbaycan, yəni müvafiq olaraq təcavüzkar və qurban arasında uğursuz paralellər aparmağa çalışır.

**“Bunun əvəzində region üzrə ekspert olaraq o bilməlidir ki, sülh prosesini irəli aparmaq üçün erməni qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən çəkilməsi prosesi başlamalıdır” - deyə səfir yazır.**

# Böyük məchulluğa doğru...



**Hüseynbala SƏLİMOV**

**Siyasət qəribə məşğuliyyətdir. Hakimiyyətdə olmağın dividentləri çoxdur. Amma nədənsə siyasətçilər başqaları ilə yalnız məsuliyyəti, özü də özlərinin gördükləri işin məsuliyyətini bölüşməyi-paylaşmağı sevirlər. Siyasətçilər hər yerdə belə olur - normal ölkələrdə də, digərlərində də...**

Ona görə də eşidəndə ki, Vladimir Putinin tapşırığı ilə baş nazir Dmitriy Medvedyev yaranmış vəziyyətdən çıxış yolları aramaq üçün siyasi partiyaların nümayəndələri ilə görüşüb, bu, bizə elə də təəccüblü görünmədi.

Əvvəldən bilirdik ki, Vladimir Putin Krımın ilhaq olunmasından, Ukraynada vəziyyətin gərginləşdirilməsindən irəli gələn çətinliklərin məsuliyyətini cəmiyyətin üstünə atmağa cəhd edəcək.

Əvvəldə qeyd etdik ki, burada təəccüblü heç nə yoxdur. Rusiyada məşhur bir deyim var: “Günahkar Çubaysdır”... Bəli, hətta Boris Yeltsin də belə edirdi və hamının yadındandır ki, özəlləşdirməyə görə az qala bütün məsuliyyəti o da Anatoliy Çubaysın üstünə atırdı...

Bundan əvvəl Leonid Brejnev, ondan əvvəl Nikita Xuruşşov, lap əvvəl isə İosif Stalin belə edirdi...

Ona görə də təəccüblü heç nə yoxdur. Bu səbəbdən də indi günahın kimin üzərində olması deyil, bu situasiyadan necə çıxmaq daha çox maraq kəsb edə bilərdi.

Amma çıxış yolu axtaran varmı? Putin çox istəyir ki, Rusiya SSRİ olsun. Bu isə o deməkdir ki, Rusiya SSRİ-nin taleyini təkrar etməlidir...

Keçmiş SSRİ-nin çökməsi ilə bağlı ən müxtəlif ehtimallar var. Hələ indi də politoloqlar bu prosesin hansı ssenari üzrə baş verdiyini anlamağa cəhd edirlər və bəri başdan deyək ki, bu cəhdlər bir o qədər də uğursuz deyil...

Amma bu cəhdlər olmadan da birmənalı şəkildə demək olar ki, SSRİ-nin faciəsi Əfqanıstandan başladı. Məhz Əfqanıstan soyuq müharibənin ən soyuq həlqəsinin başlanğıcı oldu.

Bu mənada Vladimir Putin Krımı ilhaq etməklə, Ukraynaya müdaxilə etməklə çox böyük səhv etdi. İndi bir tərəfdən problem yaşamadıqlarını iddia edir, o biri tərəfdən də partiyaları toplayıb çıxış yolları arayırlar, keçmiş sovet ölkələrini öz bazarlarına dəvət edirlər.

İqtisadçılar çox bədbin proqnozlar deyirlər. Sosioloqlar cəmiyyətin axıra qədər dözəcəyinə, yeni bir “perestroyka”nın başlanmayacağına əmin deyillər.

Bəli, SSRİ-dən fərqli olaraq Rusiya bazar iqtisadiyyatı hökm sürən ölkədir. Gəl axır vaxtlar bu bazar iqtisadiyyatı haqqında da ironiya ilə danışmaq lazım gəlir.

Kimsə deyə bilər ki, İran dözdü, məgər Rusiya dözməyəcəkmi? Dözəcək, amma elə İran kimi. Daha düzgün yol geri qayıtmaqdır. Bir müddətdən sonra bu, mümkün olmayacaq.

Düzdür, Avropa da haradasa nəsə itirir, Rusiya boyda bazarı itirir. Amma bu region öz itkilərini kompensasiya edə biləcək. Rusiya isə bunu bacarmayacaq. Bu prosesdə Rusiyanın itirdiyi ə1 böyük şey nədir? Rusiya modern dövlət olmaq, yüksək texnologiyalar səviyyəsinə qalxmaq şansını itirdi. Bazar özü də tək elə alış-verişdən ibarət deyil. Milyonlarla istehlakçı normal seçim hüququndan məhrum oldu. Bunlar az şey deyil...

Siyasətçilər deyir ki, insanlar dözməlidir. Amma nə vaxta qədər? Kimsə bunu deyirmi?..

İran bir qədər fərqli məsələdir. İranda birləşdirici amil var - bu, İslamdır. Amma bunu Rusiya haqqında demək olmur. Üstəlik, Rusiyanın etnik palitrası çox rəngarəngdir. Rusiya imperiyadır. Bu imperiyanı çalxalayan proseslərin üstündən heç əsrin dörddən biri qədər də vaxt keçməyib ki, onların unudulduğunu güman edəsən. Yox, heç kim, heç nə unudulmayıb. Çeçenlər də öz keçmişlərini xatırlayırlar, tatarlar da, başqırdlar da...

Düzdür, hələ də Qərbin Rusiya ilə bağlı planlarının nə qədər ciddi olduğunu demək çətindir. Bu, daha çox Rusiyanın davranışından asılı olacaq.

Amma hiss olunur ki, Rusiya siyasətçilərinin geri dönmək niyyəti yoxdur. Bu isə sonun başlanğıcı deməkdir...

SSRİ çökdüyünü görüb Əfqanıstandan çıxdı. Eyni bir prosesi Rusiya təkrar edə bilərmi? Rusiya Krımı tərk edə bilərmi? Demək çətindir. Yaxın dövr üçün bunu gözləmək real deyil.

Deməli, Rusiya böyük bir məchulluğa üz tutub. Yaxşılıq vəd etməyən məchulluğa. O səbəbdən də bu gün digər partiyalar Vladimir Putinə yalnız bir məsələdə yardımçı ola bilərlər - öz xəyallarını cilovlamaqda...

Düzdür, Kreml həmişə xəyallara sövq edir. Amma özünü unutmaq da bir şey deyil...

YENİ MÜSAVAT
N 233 (5942) 18 sentyabr 2014




# Yaxın Şərq yeni savaşın astanasında

## Amerikanın mübhəm “Halliburton” şirkətinin Yaxın Şərqdə görünməsi nəyə işarədir?

**“İslam Dövləti” qruplaşması *(əvvəlki adı “İraq və Şam İslam Dövləti” və ya İŞİD)* İraq və Suriyada ələ keçirdiyi ərazilərdən hasil etdiyi neftdən hər gün 3 milyon dollar qazanır. Bu barədə bir neçə gün öncə “Assoşieyted press” Amerika kəşfiyyatının hesabatına istinadən xəbər yaydı. Hesabatda bildirilir ki, İŞİD Suriya və İraq ərazisində 11 neft yatağına nəzarət etməklə ən varlı terror qurumuna çevrilib. Bu yataqlardan hasil olunan neft avtosisternlərlə İordaniya, Türkiyə və İraqın qara bazarlarında satılır.**

Xəbərdə bildirilir ki, “İslam Dövləti”nin satdığı neftin qiyməti bir barel üçün 25 dollardan 60 dollara qədər dəyişir. Amerika kəşfiyyatının qiymətləndirmələrinə görə, Birləşmiş Ştatlar aviasiyası asanlıqla “İslam Dövləti”inə milyonlarla dollar gəlir gətirən neft yataqlarını məhv edə bilər. Lakin Vaşinqton hələlik mülki insanların zərər çəkəcəyindən ehtiyat edərək hava zərbələri endirmir.

Qeyd edək ki, İŞİD-in ən varlı terror təşkilatı olması, İraq və Suriyada əhəmiyyətli neft və qaz yataqlarına sahib olması, eləcə də İŞİD vasitəsilə neftin bir qisminin Avropa ölkələrinə satılması bu təşkilatla bağlı yeni iddialara səbəb olub. Maraqlıdır ki, bugünlərdə İraq müharibəsi zamanı bölgədə əsas layihələri idarə edən, eləcə də silah ticarəti, muzdlu qoşunların yaradılması və hərbi təminat sahəsində ABŞ hökumətinin əsas layihələrini alan “Halliburton” şirkətinin adı yenidən hallanmağa başlayıb. Bugünlərdə Türkiyənin əsas enerji qurumu olan TPAO *(Türkiye Petrolleri Anonim Ortaklığı)* şirkətinin baş direktorunun müavini Besim Şişman ABŞ-ın “Halliburton” şirkəti ilə qaya qazı axtarışı və istehsalı müqaviləsi imzalandığını bildirib. “Halliburton” Trakyada qaz kəşfiyyatı və istehsalı ilə məşğul olacaq.

Ancaq iddialara görə, “Halliburton”un Türkiyədə yenidən peyda olması heç də tamamilə dərin yataqlarda qaz istehsalı ilə bağlı deyil. Bəzi iddialara görə, şirkət İraq və Suriya nefti, eləcə də yeni qurulacaq anti-İŞİD koalisiyasının təminatı və ərzaq tədarükü, eləcə də muzdluların təşkil olunması kimi sahələrdə fəaliyyət göstərəcək. Bu sahədə “Halliburton”un artıq 23 illik təcübəsi var.

“Halliborton Holdinq” illik gəliri 24,8 milyard dollar olan, dünyanın 100-ə yaxın ölkəsində fəaliyyət göstərən bir şirkətdir. Bir enerji şirkəti olan “Halliborton” neft-qaz kəşfiyyatı, istehsalı, emalı və satışı sahəsində ixtisaslaşıb. Eyni zamanda holdinq boru xətləri çəkir, neft və qaz terminalları tikir.

“Halliborton Holdinq”in törəmə şirkəti olan “Brown&Root Services” (BRS) şirkəti isə dünyada ordu sifarişləri, hərbçilər üçün xidmət sahəsinin təşkili ilə məşğul olan ən böyük firma hesab edilir. Amerika ordusu harda olubsa, bu şirkət də orada fəaliyyət göstərib. İraq, Əfqanıstan, Bosnya-Hersoqovina, Albaniya, Xorvatiya, Somali, Özbəkistan, Küveyt, Kosova, Zair və sair kimi bölgələrdə bu şirkət xeyli məşhurdur. Şirkətin illik gəliri 6 milyard dollar civarındadır.

Şirkətin qurucusu Erle P.Halliborton 1892-ci ildə ABŞ-ın Tennesi ştatında dünyaya gəlib. Birinci Dünya müharibəsində ABŞ hərbi donanmasında mühəndis kimi xidmət edib. 1919-cu ildə Halliborton Oklohoma ştatındakı öz evində neft quyularının betonlanmasını həyata keçirəcək “New Method Oil Well Cementing Company” şirkətini qurur.

Maraqlıdır ki, həmin ildə Texasda Herman və Corc Braun qardaşları “Brown&Root” inşaat və mühəndislik şirkətini qurur. Hər iki şirkət sonrakı 50 il ərzində Amerikanın dünyaya açılımı prosesində xeyli dərəcədə böyüyərək iri kompaniyalara çevrilirlər. “Halliborton” firması isə neft kəşfiyyatı sahəsində ixtisaslaşır.

Erle Halliborton 1957-ci ildə öldükdən sonra da şirkəti böyüməkdə davam edir. 1963-cü ildə isə “Halliborton Holdinq”i “Brown&Root” kompaniyasını satın alır. Ancaq sonrakı illərdə şirkətin fəaliyyəti xeyli zəifləsə də, 1991-ci ildə İraqa hücum zamanı “Halliborton” şirkəti fəallaşır. Kompaniya İraqda yanğın baş verən 320 neft quyusunun xilas edilməsi sifarişini alır. Eyni zamanda bu mərhələdə yeni neft quyuları açan “Halibborton” iflasdan xilas edilir. Beləcə, Səddam Hüseynin sahəsində “Halliborton” yenidən parlayır. 1995-ci ildə Körfəz savaşında ABŞ-ın müdafiə naziri vəzifəsini tutmuş Dik Çeyni “Halliborton” şirkətinin idarə heyətinin sədri seçilir.

Və nə qədər qəribə də olsa 2000-ci ildə Corc Buşun prezident seçilməsi ilə Respublikaçılar yenidən hakimiyyətə qayıdır və Dik Çeyni “Halibborton” şirkətinin rəhbəri postundan istefa verərək ABŞ vitse-prezidenti olur. Bundan bir il sonra ABŞ ordusu Əfqanıstanı, iki il sonra isə İraqı işğal edir...

Qeyd edək ki, məhz bu prosesdə İraqda olan ABŞ və müttəfiq ordusunun əsas ərzaq, geyim və sair təminat, xidmət sahəsindəki işləri ilə bağlı sifarişləri “Halliborton” alırdı. Bu məsələdə şirkətin keçmiş şefi və əlaqələrini hələ də qoruyub saxlayan Dik Çeyni ilə əlaqələndirilirdi.

“Halliborton” həm də muzdlu ordu qurmaqda ixtisaslaşıb. 1990-cı illərdə “Halliborton”un böyüməsi məhz şirkətin muzdlu ordu yaratması sayəsində baş verdi. Yuqoslaviyanın bölünməsi prosesində “Halliborton” şirkəti böyük miqdarda dövlət sifarişləri almaqla iştirak etdi. Amerika ordusunun “LOGCAP” *(Mülki təchizatın artırılması proqramı)* proqramı çərçivəsində “Halliborton” şirkətinin törəməsi olan “Brown&Root”la Pentaqon arasında Balkan yarımadasında böyük miqyaslı hərbi dəstək fəaliyyəti üçün ilk dəfə muzdlu ordu müqaviləsi imzaladı. Şirkətin bu müqavilə çərçivəsində yalnız Bosnyada qazandığı məbləğ 405 milyon dollar idi.

İndi isə ABŞ bölgə ölkələri ilə birlikdə İraq və Suriyada İŞİD-ə qarşı yeni savaş başladır. Bundan əvvəlki iki savaşda İraqda əsas sifarişləri qazanan və bölgədə böyük “iş təcrübəsinə” sahib olan “Halliburton”un yenidən bölgəyə qayıtması diqqətdən qaça bilməz. Yaxın Şərq yeni qanlı savaşların astanasındadır.

❑ **Kənan RÖVŞƏNOĞLU**

# Normal insan baş kəsənə necə çevrilir?

## İlahiyyatçı: “Adamları din adı ilə zombiləşdirirlər...”


Elşən Mustafaoğlu

**2001-ci il 11 sentyabr hadisəsindən sonra İslam dininin beynəlxalq aləmdə imicinə ən çox xələl gətirən İŞİD adlı terror təşkilatının tükürpədici əməlləri oldu. “Allahu- Əkbər” deyərək baş kəsən, körpələri, qadınları qətliam edən İŞİD tərəfdarları özlərini İslam dininin qoruyucusu, özlərindən olmayanları isə kafir hesab edirlər.**

Təbii ki, 11 sentyabr hadisəsində olduğu kimi, bu cür radikal dini qruplaşmaların da hansı siyasi qüvvələr və beynəlxalq güclər tərəfindən yaradılması və idarə olunması məlumdur. Buna baxmayaraq, baş verənlər sıravi insanların İslam dini haqqında yanlış təsəvvürlərinin formalaşmasına səbəb olur.

İŞİD-ə qoşulanlar arasında Azərbaycan vətəndaşları da az deyil. Bu düşüncəli adamlar isə daha çox vəhhabi təriqətinin nümayəndələri arasından çıxır. Cəmiyyəti ən çox maraqlandıran sual da insanların bu cür radikal, qan tökməklə məşğul olan radikal cərəyanlara necə qoşulmasıdır. Görəsən, normal həyatda “qarışqanı belə incidə bilməyən” hansısa gənci terror təşkilatına qoşulmağa və gözünü qırpmadan baş kəsməyə vadar edən qüvvə nədir? İnsan psixologiyası və təfəkkürü necə qısa zamanda dəyişə bilər?

**İlahiyyatçı-alim Elşən Mustafaoğlu deyir ki, insanların radikal-təkfirçi cərəyanlara qoşulmasının başlıca səbəbi din haqda düzgün təbliğatın olmaması, dini bilgisizlikdir:** “İnsanlar din haqqında doğru-dürüst bilgilərə sahib olmadıqda, üstəlik, dini bilikləri təsadüfi şəxslərdən öyrəndikdə bu, çox təhlükəli olur. Din adı ilə cəmiyyətdə müəyyən maraqlara xidmət edən görüşlər, ideologiyalar yayılır, təbliğ edilir və bunun arxasında kifayət qədər güclü dairələr, hətta bəzən dövlətlər dayanır. Belə olduğu halda, saf niyyətlə dinə-imana yönəlmək istəyən birisi din haqda dolğun məlumata malik olmadığından, şirin sözlərlə-söhbətlərlə təbliğat aparan belə dairələrin toruna düşürlər. Həmin dairələr də onların saf niyyətlərindən məharətlə istifadə edib, onların qəlblərini və düşüncələrini ələ alırlar. Zaman-zaman bu insanlar artıq düşünmək qabiliyyətini də əldən verir və tam olaraq inandıqları cərəyanın alimləri, şeyxləri, imamları, öndərlərinin fikirlərinə uyurlar. Başqa sözlə, zombiləşirlər. Bu, din adı ilə baş verdiyindən, ən təhlükəli fikirləri belə müqəddəs sayırlar. Nəticədə dünyanın ən təhlükəli ünsürünə çevrilirlər. Bu təhlükənin aradan qaldırılmasının ən effektiv yolu cəmiyyətdə dini-mənəvi dəyərləri doğru-düzgün şəkildə təbliğ etmək, maarifçilik işi aparmaqdır. İnsanlar din haqda təmiz mənbələrdən məlumat aldıqda, düzgün maarifləndikdə belə avantüralara uymayacaqlar”.

**Psixoloq Azad İsazadə isə deyir ki, vəhhabilik siyasi termindir, onlar özlərini daha çox sələfi adlandırırlar:** “Sələfilərin arasında isə radikallar da var, liberallar da. Burada isə söhbət sələfilərin radikal qanadından gedir. Bunun səbəbi isə odur ki, insanlar ədalətsizliklə qarşılaşanda və ədalət tapa bilməyəndə daim onun axtarışında olurlar. İslam dini isə ədalət və Allaha inam üzərində qurulur. Radikalların arasında isə belə bir anlayış var ki, biz Allah yolunda nə ediriksə, bunu bizə bağışlayacaqlar. Söhbət cənnət və cəhənnəmdən gedir və onlar elə düşünürlər ki, cənnətə düşəcəklər. Kafir hesab etdikləri insanlara qarşı isə normal davranmırlar. Onları qeyri-insan hesab edirlər və düşünürlər ki, onlarla istədikləri kimi rəftar edə bilərlər. Məişət həyatında bəlkə də o insanlar çox mülayimdirlər, ancaq cihad adı ilə qan tökməyə hazırdırlar”.

**Psixoloqun sözlərinə görə, insanları bu təriqətə cəlb etmək üçün iman üzərində qurulmuş xüsusi texnologiyalar hazırlanıb:** “İlk növbədə insanların bu təriqətə inamını bərpa edirlər və onlar düşünürlər ki, etdikləri hər bir əməl haqdır. Bu səbəbdən ora ancaq gələcəyə, haqq-ədalətə inamını itirən insanlar daha tez müraciət edirlər. Cəmiyyətdə ideoloji boşluğun olması bunun bir səbəbidir. Belə boşluq olanda insanlar onu nə iləsə doldurmağa çalışırlar”.

**Deputat Fazil Mustafa hesab edir ki, qeyri-ənənəvi təriqətlərin qarşısını almaq üçün maarifləndirmə tədbirlərinin artırılmasına və İslamın gerçək mahiyyətinin təbliğinə ehtiyac var:** “İslamın daha tolerant, daha xoşgörülü cərəyanlarının daha qabarıq və müqayisəli şəkildə cəmiyyətə açıqlanmasına ehtiyac duyulur. Radikalizmin kökündə yatan əsas amil həm də bir xəstəlikdir, insanın İslamdan barış duyğusu götürmək əvəzinə, nifrət duyğusu götürməsi xəstəlikdir. İslam o qədər böyük bir əxlaqi dindir ki, insanın oradan yalnız sərtliyi götürməsi ondan irəli gəlir ki, insanın həyatında yaşadığı problemlər onu daha da körükləyir. Bu belə olmamalıdır. Həzrəti Məhəmmədən çox zülm yaşayan insan olmayıb tarixdə. Ancaq o, heç bir düşmənine qarşı qəddarlıq etməyib. İnsanlar peyğəmbərin əxlaqından uzaqlaşırlar. Sən müəyyən etmirsən ki, kim kafirdir, kim imanlı. Sən hətta dinsizin də həyatına məsuliyyət daşıyırsan, ona heç bir xəsarət yetirə bilməzsən. Sən haradan bilirsən ki, Allah qatında kim nə mükafat alacaq? Allah iddiasında olan, özünü üstün tutub hər kəsə qiymət verən insanlar cahillikdən bu yola düşürlər. Bir də insanların dini qapalı formada yaşaması onları radikalizmə sürükləyir. Dini cəmiyyətə açmaq lazımdır. Mülayim bir İslam anlayışına insanlar daha çox can atırlar”.

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 233 (5942) 18 sentyabr 2014

**Dünyanın diqqəti bu gün dolayısıyla Qarabağ ixtilaflına da təsir göstərə biləcək Şotlandiyada keçiriləcək referenduma yönəlib. Bu gün şotlandlar Böyük Britaniyanın tərkibində qalmağı, yoxsa müstəqil dövlət olmağı dəqiqləşdirəcəklər. 4,2 milyondan çox şotlandiyalı 1707-ci ildən bəri davam edən Böyük Britaniya ilə siyasi birliyin aqibətini müəyyənləşdirəcək.**





Andrey Yepifantsev

# Bu gün "erməni xəstəliyi"nin kəskinləşdiyi gündür

## Dağlıq Qarabağla müstəqillik referendumu keçirən Şotlandiya arasında paralellik aparıb özünə təsəlli verən düşmən tərəf iki məsələ arasında prinsipial fərqləri inadla görməzliyə vurur; bəs ekspertlər nə deyir?..

**Rusiyalı politoloq:** "Şotlandiya nümunəsindən kiminsə öz xeyrinə istifadə eləməsi üçün gərək münaqişə tərəflərindən heç biri Ermənistan və Azərbaycanın daşıdığı faciəvi yük qədər yük daşımasın..."

Situasiyanın özəlliyi ondadır ki, referendum yerli hakimiyyətlə mərkəzi hökumət arasında illərdir aparılan sülh danışıqlarının yekunu kimi ortaya çıxıb və prosedur etibarilə tərəflər arasında razılaşdırılıb. Yəni bu qanunsuz, aqressiv separatçılıqdan doğan bir səsvermə, plebissit deyil, Böyük Britaniya konstitusiyasına tam uyğundur və o üzdən də nəticələrini hər iki tərəf yüzdə yüz qəbul edəcək.

Buna rəğmən, son günlər erməni tərəfi maniakalcasına iki məsələ arasında cidd-cəhdlə paralellik apararaq özünə təsəlli verir, Şotlandiya nümunəsinin saxta qurumun da tanınması baxımından güclü presedent olacağına ümid edirlər. Guya Şotlandiya müstəqillik əldə eləsə, Dağlıq Qarabağdakı separatçı rejimin tanınması da sürətlənəcək, çünki "hər iki halda xalqların öz müqəddəratını sərbəst təyinetmə hüququndan söhbət gedir".

Kəsəsi, bu gün həqiqi mənada "erməni xəstəliyi"nin residiv günüdür. Halbuki Qarabağ konflikti ilə Şotlandiyanın müstəqilliyi məsələsi arasında daha bir neçə və olduqca prinsipial fərq var. Onları da sadalayaq: **1.** Şotlandiya referendumu problem və ya ixtilaf deyil, xalqın qanuni haqqından qaynaqlanan bir siyasi hadisədir. **2.** Şotlandlar ermənilər kimi, "müstəqillik" naminə heç bir başqa xalqın ərazisini zəbt eləməyib, onu etnik təmizləməyə məruz qoymayıb, təməl bəşəri haqları ayaqaltı etməyib ki, ardınca da referendum və müstəqillik sevdasına düşsünlər. **3.** Qarabağ separatçılığı, etnik təmizləmə aparılan ərazilərdə ermənilərin referendum keçirməsi bütünlüklə Azərbaycanın Konstitusiyası və qanunlarına zidd olaraq həyata keçirilib və təbii ki, mərkəzi hakimiyyətlə heç bir razılaşmadan da söhbət gedə bilməz. **4.** Azərbaycan Konstitusiyasına görə, ölkənin ayrıca götürülmüş ərazisində referendum keçirilə bilməz, Şotlandiya isə cəmi 300 il əvvəl müqavilə əsasında Britaniya krallığının tərkibinə keçib və oradan çıxmaq hüququ var. **5.** Şotlandiya referendumunun nəticələrini beynəlxalq birlik dərhal tanıyacaq, həm də o səbəbə ki, şotlandlar öz müqəddəratını müəyyən eləməyiblər. Erməni xalqı isə buna çoxdan gedib və artıq Ermənistan adında dövləti var, BMT-nin üzvüdür. Qısası, Şotlandiyadakı referendumun hüquqiliyi və legitimliyi şübhə doğurmur.

Bununla belə, bəzi analitiklərə görə, "Kosovo təcrübəsi" faktiki surətdə iki prinsipi - ölkələrin ərazi bütövlüyü ilə xalqların öz müqəddəratını təyinetmə prinsiplərini eyni dərəcədə legitimləşdirib və fövqəldövlətlərə onların geosiyasi maraqlarından asılı olaraq gah birini, gah da digərini seçmə imkanı yaradıb. Odur ki, Azərbaycan da daxil, belə oxşar problemlərin mövcud olduğu ölkələrin maksimum diqqətli olması gərəkir.

***

Bir şey dəqiqdir və onu gərək ermənilər daim qulaqlarında sırğa eləsinlər ki, Dağlıq Qarabağ münaqişəsi Rusiya tərəfindən ona görə ortaya atılmayıb ki, günün birində Moskva separatçı rejimi dövlət olaraq tanısın. Bunu bilə-bilə, hətta ən ağıllı erməni ekspertlərinin Şotlandiya, Kosovo nümunələrinə istinad eləməsi absurd görünür. Məsələn, amerikalı politoloq və publisist Aleksandr Murinson da o qənaətdədir ki, SSRİ-nin çöküşünün lap əvvəlindən Rusiya "dondurulmuş münaqişələr" siyasəti qurmağa başlayıb və ilk belə presedenti də Qarabağda yaradıb (vesti.az).

**"Bu, Kremlin qonşu ölkələr üzərində özünəməxsus nəzarət kəməridir"** - deyib analitik. Onun sözlərinə görə, əgər Moskvanın Avrasiya layihələri qəliz duruma düşsə, Kreml Bakıya Qarabağ presedenti ilə bağlı eyham vuracaq. Paralel olaraq Ermənistana göz vuracaq. Bu xüsusda amerikalı politoloq bu yaxınlarda Rusiyada keçirilmiş bir sorğunu da əsla təsadüfi hesab eləmir. Həmin sorğu zamanı guya ki, rəyi soruşulan rusiyalıların çoxu Dağlıq Qarabağı "müstəqil respublika" kimi tanıdıqlarını "bildirmişdilər".

Moskvadakı **"Alte et Certe" analitik mərkəzinin başçısı Andrey Yepifantsev** də Dağlıq Qarabağla Şotlandiya arasında birbaşa paralellik aparılmasının əleyhinədir: **"Böyük Britaniyada hazırda sivil boşanma prosesi gedir. Ölkənin başqa, titul hissəsi narazı olsa da, kiçik hissəni saxlamağa çalışsa da, onu buraxacaq. Orada etnik təmizləmə və müharibə olmayacaq, deməli münaqişə və hərbi revanş istəyi də yaranmayacaq. Həmçinin İngiltərədə Şotlandiyanı qaytarmaq üçün milli ideya da formalaşmayacaq".**

Ekspertin qənaətincə, Şotlandiya nümunəsindən kiminsə öz xeyrinə istifadə eləməsi üçün gərək münaqişə tərəflərindən heç biri Ermənistan və Azərbaycanın daşıdığı faciəvi yük qədər yük daşımasın.

Əslində sonuncu faktor yetərlidir ki, iki məsələ arasında paralellik aparmaq möhtəkirliyinə və demaqogiyasına dərhal son qoyulsun. Amma axı bu, ermənidir - daim uydurma və miflərlə, yalan və pripiskalarla yaşamağa aludə olmuş, tarixi belə özünə sərfəli şəkildə saxtalaşdırmış erməni...

# Düşmən ölkə xofda - İrəvan cəzalanacaq

## Tək erməni siyasətçilərin yox, jurnalistlərin də psixoloji problemləri varmış; Ermənistana Rusiyanın ən böyük cəzası odur ki...

**Ermənilər qorxur ki, Bakı və Moskva tezliklə İrəvanı cəzalandıracaq. Hər haldab "Jamanak" qəzeti belə hesab edir (anspress). İş ondadır ki, Rusiya baş nazirinin müavini Dmitri Roqozinin Bakıya səfəri nəşri çox narahat edib. Qəzeti (təkcə onumu?) Roqozin və Azərbaycanın baş nazirin müavini Yaqub Eyyubovun birgə bəyanat verərək Qərbin Rusiyaya qarşı sanksiyalara gedib səhv etdiyini bildirməsi bərk qorxuya salıb.**

Erməni qəzeti buradan belə bir nəticə çıxarır ki, Bakı və Moskva arasında az qala "bal ayı" başlanır. Nəşr "bəs bizdə vəziyyət necədir" deyə soruşur. "Biz həmişə Rusiya qarşısında bütün öhdəliklərə sadiq qalmışıq, amma onlar bizə praktiki olaraq xəyanət edirlər" - yazıb.

Nəşrin bildirdiyinə görə, Ermənistan öz müttəfiq öhdəlikləri ilə Qərbə qarşı Rusiya-Azərbaycan oyununa qoşulmağa məcburdur. Bu halda, İrəvanın salındığı tələ bir qədər də möhkəm çəkilir və nəhayət ki, İrəvanın cəzalandırılması yalnız vaxt məsələsidir. "Bəs nə vaxt Moskva və Bakı İrəvanı cəzalandıracaq?", - deyə müəllif sual edir.

Belə fikirləri oxuyanda anlayırsan ki, Ermənistanda yalnız siyasətçilər deyil, jurnalistlərin də psixoloji problemləri var. Ən azı ona görə ki, Ermənistan çoxdan Rusiyanın ovcunun içindədir, faktiki, RF-nin quberniyası və az qala təzəcə ilhaq edilən Krımdan da aşağı müstəqillik statusundadırsa, daha hansı cəzadan söhbət gedə bilər ki. Rusiya Ermənistana ən böyük cəzanı çoxdan verib - onu əsas qonşuları olan Azərbaycan və Türkiyə ilə uzun müddətə düşmən vəziyyətinə salmaqla.

Başqa yandan, dəfələrlə deyilib ki, Rusiyanın Azərbaycana müasir silahlar satması ilk növbədə Kremlin öz strateji və kommersiya maraqlarından irəli gəlməklə, müharibə vəziyyətində olan Azərbaycanla Ermənistanı öz orbitində saxlamağa hesablanıb...



Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 233 (5942) 18 sentyabr 2014

**Deyirlər, şəhərdə bir nəfər Xoşqədəm Hidayətqızının verilişinə baxanda ürəyi partlayıb. Eşitmisiz?" Bu xəbər öncə işıq sürətilə redaksiyada yayıldı, az keçmədən yaşadığım qəsəbənin adamları arasında da danışılmasının şahidi oldum. Hadisənin bazar günü, yəni veriliş yayımlandığı gün baş verdiyi bildirildi. Yas yerini, mərhumun kimliyini dəqiqləşdirəndən sonra isə "Yeni Müsavat"ın öhdəsinə bu hadisəni araşdırmaq qaldı.**

# "Səni axtarıram"a baxarkən dünyasını dəyişən kababçının hekayəsi

## Ailəsi verilişdən narazılıq etmir, amma bunu xoşagəlməz təsadüf sayır...





Heç kimə sirr deyil ki, Hidayətqızının adıçəkilən verilişi yüksək reytinq və tamaşaçı auditoriyasının bolluğu ilə fərqlənir. Hər həftənin bəlli günləri xüsusən yaşlı nəslin nümayəndələri gözlərini ATV ekranından çəkə bilmirlər. Yarımçıq qalmış hekayətlər, axtarılan, bəzi hallarda tapılan, bəzi hallarda tapılıb da üzə çıxmaq istəməyən insanlar. Anamın o verilişin yayımlandığı günün səhəri "ürəyim ağrıdı dünən, bir yazığı göstərdilər..." tipli danışıqlarını da nəzərə alanda girişdə yazdığım hekayə o qədər də qeyri-inandırıcı görünmədi.

Biləcəri qəsəbəsi yaxınlığında qurulan yas mağarını tapana qədər isə rastımıza mərhumun qonşuları çıxdı. Ölüm hadisəsinin izinə jurnalistlərin düşdüyünü eşidib təəccüblənirlər öncə. "Adi ölüm mətbuatı niyə bu qədər maraqlandırır ki?..." Ölüm hadisəsinin verilişə baxanda, hansısa süjetin təsiri ilə olduğunu deyirik, təəccüb edirlər: "Vallah, verilişə görə adam ölər? Yəqin təsadüfdür. Hamımız o verilişə baxırıq da. Biz niyə ölmürük ki? O bir təsadüf ola bilər..."

Qonşuların bu inkaredici reaksiyasından sonra mağara yaxınlaşıb mərhumun əzizləri ilə danışırıq. 68 yaşlı Yusif Əhmədovun ölümü ilə bağlı ən çox oğlanları, həyat yoldaşı, gəlini pərişan görünürdü. Söz arası öyrənirik ki, Füzuli sakini olan Y.Əhmədov uzun illər aşpaz olub. Hələ sovet dönəmində katibin şəxsi aşpazı olub. Yeyib-içməyi, qonaq qəbul etməyi çox sevərmiş. Bakıya gələndən sonra da qoyun-quzu ferması və restoranı olub. Yenə də keçmiş peşəsi ilə məşğul imiş.

**Hadisənin baş verdiyi günə gəlincə, başda gəlinləri olmaqla, oğlu və qohumları bildirir ki, həqiqətən də mərhumun ürəyini tutması "Səni axtarıram"a tamaşa edərkən baş verib:** "Amma onun ürəyi tutanda hələ veriliş təzə başlamışdı. Sponsorlara minnətdarlıq edirdi Xoşqədəm, təzə salamlaşırdı. Orda hansısa hadisədən ürəyi tutmadı. Bizcə, bu, təsadüf idi. Heç istəməzdik ki, hadisə bu cür qələmə verilsin. Xoşqədəm xanımın verilişinə bütün Azərbaycan baxır. O adam öldürən veriliş deyil ki..."

**Yaxınları həmçinin bildirir ki, Y.Əhmədovun həyat yoldaşı tibb bacısıdır. 68 yaşlı ərinin ürəyi tutan kimi ilkin müdaxilə edib, həkimə zəng ediblər. Amma Təcili Tibbi Yardım gələnə qədər artıq Füzulinin məşhur aşpazı dünyasını dəyişibmiş. Gəlini danışır:** "Onların ailəsində ürək xəstəliyi geniş yayılıb. Əksər qohum-əqrəbalar 60 yaşdan o yana qalmır. Ya infarkt olur, ya da digər ürək xəstəliyindən dünyasını dəyişirlər. Yusif dayının 68 yaşa qədər yaşaması böyük iş idi. Bizim nə o verilişə kinimiz var, nə də qayınatamın ölümünü onlardan görürük. Allah hərəyə bir ömür payı biçib".

**Müsahibimiz deyir ki, həmin gün axşam yeməyini yeyəndən sonra qayınatası adəti üzrə televizor qarşısına keçib və yoldaşından çay istəyib:** "Bu zaman qəfildən dili qatlanıb. Qayınanam müdaxilə edib, dərman verib və sair. Amma onu xilas etmək mümkün olmayıb. Təcili yardım gələndə kişi dünyasını dəyişmişdi".

**Yaxın qonşuları isə iddia edir ki, Y.Əhmədovun ölümünə Təcili Tibbi Yardım Xidmətinin gec gəlməsi səbəb olub. Onların dediyinə görə, xidmətə zəng edərkən dispetçerlər vaxt oğurlayıb, yersiz-yersiz suallar veriblər:** "Gah soruşdular ki, bəlkə ürəyi tutmayıb, eləcə yatıb? Sonra dedilər, fikir verməyin, axşam saatıdır, hamıda gərginlik var. Halbuki dərhal gəlsəydilər, bu hadisə baş verməzdi".

**Bununla yanaşı, mərhumun kababçı olaraq qidalanma tərzi, qida rasionunun da ürək xəstəliyi yarada biləcəyini düşünənlər var. Yas yerindəki qonşulardan biri bildirdi ki, rəhmətlik hər zaman yağlı yeməkləri xoşlayıb. Hətta bir şiş quyruğu təkbaşına yeməyi sevirmiş:** "O yaşda o cür qidalanmaq olmazdı. Gərək yeməyinə də fikir verəydi. Ürək tab gətirməz o cür yağlı yeməklərə. Qida borusu tıxanır".

Sonda... "Yeni Müsavat" bu yas yerindən reportaj hazırlamaqla heç də X.Hidayətqızının məşhur verilişini hədəf göstərmək niyyətində olmayıb. Sadəcə, redaksiyamıza kimi çatan bir xəbərin sorağına düşdük. Mənzərə girişdə dediyimiz kimi, "Səni axtarıram"a baxan yerdə gözünü qapayan bir azərbaycanlıdan ibarət idi. Mənzərənin arxasındakı reallıq başqa olsa da...

❑ **Sevinc TELMANQIZI**

# Dəfn və qəbir yerlərinin satılması problemini necə çözməli...

## Qonşu Türkiyədə bunun uğurlu təcrübəsi var, deputat Fazil Mustafa deyir ki, müəyyən müddət üçün tənzimləmələr faydalı ola bilər

**Hökumətin yas mərasimlərində israfçılığın qarşısını almaq qərarının ardınca dəfn məsələlərinin də nizamlanması ilə bağlı təklif gəlib. Milli Məclisin Sosial siyasət komitəsinin sədr müavini Musa Quliyev dəfn prosesinin dövlət və ya bələdiyyə orqanları tərəfindən həyata keçirilməsi təklifi ilə çıxış edib. "Trend"ə açıqlamasında M.Quliyev bildirib ki, mövcud qanunvericiliyə əsasən, qəbir yerləri icra hakimiyyəti orqanları, yaxud bələdiyyələr tərəfindən vətəndaşlara verilir. Ancaq qəbirin hazırlanması, qəbir daşının sifarişi, qoyulması, ümumiyyətlə, dəfn prosesinin təşkili xərclərini vətəndaşlar ödəyirlər.**



M.Quliyevin sözlərinə görə, dəfn üçün müavinətlə yanaşı, dəfn prosesinin özü də dövlət və bələdiyyə tərəfindən həyata keçirilməlidir. Bu, xüsusilə aztəminatlı və orta təbəqəyə aid olan insanlar üçün dövlət və bələdiyyə tərəfindən göstərilmiş böyük dəstək olar.

Deputat həm dövlət, həm bələdiyyə, həm də özəl qəbiristanlıqlar yaradılması, qəbiristanlıqlarında vahid standartlar tətbiq edilməsi, İslam qaydalarına uyğun olaraq vahid başdaşı formalarının tətbiq olunmasını təklif edib.

Qeyd edək ki, indi əsasən yas mərasimlərində yemək verilməsinə qarşı kampaniyalar aparılsa da, əslində daha böyük israf hallarının, möhtəkirliyin məhz dəfn adətlərində olduğu sirr deyil. Məsələn, bir qədər əvvəl elan olunmuşdu ki, Bakıda mövcud olan 200 qəbiristanlıqda qəbir yerlərinin 500 dollardan 10 min dollara qədər dəyişdiyi haqda məlumat verilir.

Xırdalan qəbiristanlığında ən bahalı yer 1200, ən ucuz 800 manatdır. Masazır qəbiristanlığında isə qəbir yerlərinin qiyməti 400 manatdan başlayır. Biləcəri qəbiristanlığında 1 kvadratmetrin qiyməti 300-500 manat arasında dəyişir. Ən yaxşı qəbir yerinin 1 kvadratmetri 800-1000 manatdan ucuz deyil. Günəşli qəbiristanlığında bu məbləğ 400-1500 manat, Badamdar qəbiristanlığında 500-1500 manat, Qaraçuxur qəbiristanlığında 200-1000 manat, "Qurd qapısı" qəbiristanlığında 1000-3000 manat civarındadır. Yasamal qəbiristanlığında isə qəbir yerləri 2000-3000 manatdır.

Ancaq dəfn xərcləri *(qəbiristanlıqda)* bununla yekunlaşmır. Ölü sahibi 150 manata qədər pul xərcləyərək qəbir qazdırmalı, onun içərisini daşlarla hördürməlidir. Bura ölünün yuyulması, meyit namazı qılınması və nəhayət, xüsusi avtomobillə qəbiristanlığa aparılmasını da əlavə etdikdə fantastik qiymətlər alınır.

Ancaq məsələ burasındadır ki, Azərbaycanda dəfn və qəbir yeri qiymətləri həddən artıq baha və əhalinin maddi imkanlarına münasib deyil. Üstəlik, bütün digər sahələrdə olduğu kimi, bu sahə də Azərbaycanda monopoliyaya alınıb. Və hansısa qrupların gəlir yerinə çevrilib. Şəhərin ən ucuz yeri hesab olunan Günəşlidə məzar yerlərinin 1500 manata olması dəllalların bazar açmasına işarədir.

Qeyd edək ki, qonşu Türkiyədə qəbir yerləri ərazi qiymətlərinə görə dəyişsə də, imkansız əhali üçün qəbir yerləri müəyyən olunub. Bundan başqa, Türkiyədə qəbirin qazılması, meyitin yuyulub dəfn olunması işlərini İstanbul bələdiyyəsinin müvafiq qurumu həyata keçirir. Bütün bunlar pulsuzdur. Hətta ölən şəxs Türkiyənin başqa bir bölgəsində dəfn olunmalıdırsa, yenə də hökumət bunu pulsuz təşkil edir. Əgər meyitin dəfn olunacağı bölgədə imam *(molla)* yoxdursa, meyit namazını qılmaq üçün meyit maşını ilə birgə bir imam da göndərilir. Əgər ölənin kimsəsi yoxdursa və yaxud kasıbdırsa, qəbir yerinin alınması xərclərini bələdiyyə ödəyir.

**Azərbaycanda dəfn işlərinin qaydaya salınması, bu sahədə israfın aradan qaldırılması ilə bağlı çağırışlar getdikcə artır. Musa Quliyevin təklifi ilə bağlı birmənalı mövqe olmasa da, bir çoxları bu istiqamətdə tənzimlənmələrin həyata keçirilməsini normal qarşılayır. Deputat Fazil Mustafa həmkarının mövqeyini alqışlayır. Ancaq onun fikrincə, bu kimi tənzimlənmələr vətəndaşın hüquqlarına müdaxiləyə çevrilməməlidir:** "İnsan haqlarına müdaxilə etməmək şərti ilə bu addımı müsbət qarşılayıram. Bu məqsədlə bir xidmət sferası yaradıla bilər. Burda həm də bir alternativ təklif oluna bilər və insanlar rahatlıqla bunu həyata keçirə bilərlər. Ancaq bu işin bütövlükdə dövlətə verilməsi doğru deyil. Çünki burda elə işlər var ki, onun özəl şirkətlər tərəfindən edilməsi daha məqsədəuyğundur. Çünki dövlət xidmətində istədiyin şəkildə məsələləri həll etmək mümkün deyil. Çünki bizdə kapitalist cəmiyyətidir".

**F.Mustafa deyir ki, Azərbaycanda bələdiyyə institutu formalaşsaydı, bu işi onlara tapşırmaq olardı. Ancaq bələdiyyə institutunun zəif olması, bu istiqamətdə yeni bir mexanizm ortaya qoyulmalıdır:** "Bu, əslində bələdiyyənin funksiyasına daxildir. Kiçik həcmdə vəsait ödəyirsən, tibbi sığortada olduğu kimi əvvəldən edilən ödənişlər hesabına bələdiyyə büdcəsində ayrı bir fond yaradıla bilər və bundan sonra ərazidə olan yas mərasimləri bələdiyyənin büdcəsi hesabına təşkil oluna bilərdi.

Ancaq bizdə bu institut yoxdur. Məncə, bu məsələdə dövlətin əsas işi tam inzibati üsullarla olmasa da, müəyyən məsələlərdə bu işin təşkilində vətəndaşlara kömək etməməlidir. Bəlkə də 6 aydan sonra buna ehtiyac olmayacaq, bu prosesi sadələşdirəndən sonra insanların öhdəsinə buraxmaq lazımdır. Mən Musa müəllimin fikrini dəstəkləyirəm, düşünürəm ki, o, xoşniyyətli olaraq insanların daha rahat alternativ əldə etməsi üçün belə bir təkliflə çıxış edib. Mühüm olan odur ki, problemləri həll etməyə çalışanda yanlışlara da yol verməyək, vətəndaşın da müəyyən dərəcədə istəyini nəzərə ala bilək. Yəni bütün bunlar hamısı bir yerdə düşünülməlidir".

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 233 (5942) 18 sentyabr 2014


Ceyms Uorlik

# Rusiya və Qərb arasındakı gərginlik Minsk Qrupunu iflic edib

## Azərbaycanlı ekspertlər bölgəyə tək səfər edən Ceyms Uorlikin şifrəli danışığını şərh etdilər

**"NATO-nun Uels sammitində qəbul olunmuş yekun Bəyannamədə BMT Nizamnaməsi və ATƏT-in Helsinki Yekun Aktına istinad olunub". APA-nın news.am-a istinadən verdiyi məlumata görə, bunu ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik deyib.**

Uorlik bildirib ki, prinsiplər özlüyündə güc tətbiq olunmamasını, ərazi bütövlüyünü və eyni zamanda xalqların öz müqəddəratını təyinetmə hüququnu ehtiva edir: "Münaqişənin nizamlanması bu prinsiplərə əsaslanmalıdır. Həmsədr ölkələr dayanıqlı həllə nail olmaq üçün tərəflərlə işləməyə davam etməlidir".

İrəvanda səfərdə olan Uorlik Ermənistan prezidenti Serj Sərkisyanla görüşüb. Məlumata görə, tərəflər münaqişənin nizamlanması prosesini və gələcək perspektivlərini müzakirə ediblər. Sarksiyan və Uorlik həmçinin Uelsdə Azərbaycan, Ermənistan prezidentləri və ABŞ dövlət katibi Con Kerri arasında keçirilən üçtərəfli görüşü müzakirə ediblər. Amerikalı həmsədrin səfər əsnasında verdiyi anons da müzakirələrə səbəb olub. Qeyd edək ki, **Uorlik çıxışı zamanı bildirib ki, may ayında Karnegi Fondunda ifadə etdiyi 6 prinsip ətrafında razılıq əldə etməyə çalışırlar:** "Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqları yeni səviyyəyə çıxarmağın vaxtı çatıb. Artıq münaqişəli ölkələrin dövlət başçıları və xarici işlər nazirləri səviyyəsində keçirilən nadir görüşlər kifayət etmir, tərəflərin müstəqil şəkildə müəyyənləşdirəcəyi formatda rəsmi danışıqlara ehtiyac var".

**Politoloq Rasim Musabəyov son zamanlar həmsədrlərin bölgəyə tək-tək gəlməsinə diqqət çəkdi:** "Hiss olunur ki, Rusiya və Qərb ölkələri arasındakı gərginlik Minsk Qrupunun fəaliyyətinə də təsir göstərib. Yəni Minsk Qrupu dağılmayıb, amma həmsədrlər arasında rabitə xeyli zəifləyib". **Politoloq amerikalı həmsədrin son açıqlamasında hər hansı yeniliyin olmadığını vurğuladı:** "Vaxtilə Madrid prinsiplərində əksini tapan müddəalardan bəhs edib. O vaxtdan heç yarım addım da irəliyə gedilməyib. Biz və Ermənistan 6 bəndə razılıq verməyib. Amma Azərbaycan deyir ki, çərçivə sazişinə vaxt sərf etməyə ehtiyac yoxdur və bu prinsiplər əsasında sülh sazişi hazırlamalıyıq".

**"Dağlıq Qarabağ münaqişəsinin həllinə dair danışıqların hazırkı vəziyyəti ilə bağlı indidən şərh vermək düzgün olmaz. Çünki ortada hələ real nəticə yoxdur". Bunu isə modern.az saytına açıqlamasında sabiq dövlət müşaviri, politoloq Vəfa Quluzadə konfliktin həlli istiqamətində aparılan danışıqlar prosesini şərh edərkən deyib. Quluzadə Uorlikin danışıqlarla bağlı səsləndirdiyi "yeni müstəviyə keçmək lazımdır" açıqlamasına da münasibət bildirib. Analitik hesab edir ki, yeni müstəvi Azərbaycan və Ermənistanın Rusiyadan qorxmayaraq öz səyi ilə münaqişəni həll etməsindən ibarətdir. Sabiq dövlət müşaviri yeni fazanı gizli danışıqlar kimi xarakterizə edib:** "Yeni müstəvi budur və burda başqa bir şey yoxdur. Köhnə müstəvi isə heç bir nəticə verməyən danışıqlardır. Yeni müstəvi gizli danışıqlarla nəticə əldə etməkdən ibarətdir". **Politoloq Dağlıq Qarabağdakı separatçı rejimin danışıqlar prosesinə cəlb edilməsi kimi iddialara belə cavab verib:** "Ermənistan həqiqətən də məsələni həll etmək istəyirsə, Azərbaycanla razılığa gəlməlidir və separatçı rejimi danışıqlara cəlb etməyə cəhd göstərməməlidir".

"Azərbaycan və Ermənistan prezidentləri İlham Əliyevlə Serj Sərkisyan Parisdə görüşüb danışıqlar aparmağa artıq razılıq veriblər". Bunu virtualaz.org saytına açıqlamasında Fransanın Azərbaycandakı səfiri Paskal Monye deyib. Diplomatın sözlərinə görə, prezidentlərin görüşü oktyabrın ikinci yarısında Fransa prezidenti Fransua Ollandın vasitəçiliyi ilə baş tutacaq.

**"Ortada altı prinsipdən başqa heç nə yoxdur. Uorlikin dediyi "İşıqlı pəncərə" də məhz bu altı maddəyə işarədir". Bunu isə Uorlik Ermənistandakı çıxışını şərh edərkən politoloq Zəfər Quliyev deyib. Politoloq bildirir ki, Uorlikin əsas məqsədi danışıqları bərpa etməkdir:** "Amerikalı həmsədr həm də ABŞ və Fransanın bu məsələdə mövqe üstünlüyünü təmin etmək üçün bu altı maddəni ortaya atıb. Son Ukrayna hadisələrindən sonra ABŞ və Fransa Qarabağ danışıqlarında təşəbbüs fəallığı göstərirlər. Çünki Soçi görüşünün təşkilindən sonra onlar bu məsələdə Rusiyanın üstünlüyündən narahatdırlar. Moskvanı bu üstünlükdən məhrum etməyə səy göstərirlər". *(Hafta.az)*

**Z.Quliyev danışıqlar üzərindən başqa oyunların oynanıldığını da dilə gətirib:** "Uorlikin "6 maddəsi"nin pərdəarxası məqamları başqadır. Münaqişənin həlli məsələlərindən daha çox geosiyasi mübarizə gedir. Rusiya və Qərb bütün münaqişələrin nizamlanma prosesində vahid hegemonluğa çalışır, o cümlədən Qarabağ məsələsində. Ukrayna hadisələri Minsk Qrupunun birliyini iflic edib. Yenə deyirəm, Uorlikin dediklərində konkret və real olan heç bir yenilik yoxdur".

❑ **Cavid TURAN**

# Jirinovski Azərbaycanda həbs oluna bilər

## Mahmud Hacıyev: "Əgər İnterpol Jirinovski haqda axtarış versə, rusiyalı partiya sədri ölkəmizə gəlməkdən vaz keçməlidir"


Vladimir Jirinovski

**Rusiya Liberal-Demokrat Partiyasının (RLDP) lideri Vladimir Jirinovskinin Azərbaycana səfəri ərəfəsində Ukrayna Daxili İşlər Nazirliyi onunla bağlı sənədləri beynəlxalq polis təşkilatına - İnterpola təqdim edib.**

Ukrayna daxili işlər nazirinin məsləhətçisi Anton Geraşenko bildirib ki, Jirinovskinin Ukraynada terrora dəstək vermək istəyi ilə əlaqədar İnterpola müraciət ediblər: "Jirinovskiyə qarşı Ukraynada axtarış elan edilib, sənədlər İnterpola təqdim edilib".

"Trend"in diplomatik mənbəyə istinadən yaydığı məlumata görə, V.Jirinovski Bakıda və ölkənin regionlarında bir sıra görüşlər keçirməyi, respublikadakı inkişaf prosesləri ilə yaxından tanış olmağı planlaşdırır. Səfərin sentyabrın sonunda baş tutacağı gözlənilir.

Hazırda İnterpolun saytında Vladimir Jirinovskinin axtarışda olması haqda məlumat yerləşdirilməyib. Amma bu o demək deyil ki, yaxın günlərdə belə bir məlumat İnterpolun saytında yerləşdirilməyəcək. Bu halda Jirinovski Azərbaycanda həbs edilə bilərmi?

**Sabiq polis rəisi Mahmud Hacıyev "Yeni Müsavat"a deyib ki, Milli Mərkəzi Büro Azərbaycanın və İnterpola üzv olan ölkələrin hüquq-mühafizə orqanları arasında cinayətkarlıqla mübarizə sahəsində informasiya mübadiləsini həyata keçirən DİN-in müstəqil struktur hissəsidir. MMB aşağıdakı vəzifələri həyata keçirir:**

- Respublikanın və İnterpola üzv olan ölkələrin hüquq-mühafizə orqanları arasında cinayətkarlıqla mübarizə sahəsində informasiya mübadiləsinin həyata keçirilməsi.

- İnterpol kanalları ilə daxil olan sorğu və tapşırıqların icrası.

- Cinayətlərin qarşısının alınması və açılması məqsədilə digər ölkələrin MMB-lərinə cinayətlər və cinayətkarlar, habelə şəxslərin, əşya və sənədlərin axtarışı barədə sorğuların göndərilməsinin təmini.

- Digər ölkələrin MMB-lərindən daxil olan analoji müraciət və məlumatların respublikanın aidiyyəti hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqədə icrasının təmin edilməsi.

- Azərbaycanda cinayət törətməkdə şübhəli bilinmiş, cinayət məsuliyyətinə cəlb olunmuş və barələrində həbs-qətimkan tədbiri seçilmiş xarici vətəndaşlar haqqında İnterpolun Baş Katibliyinə tapşırıq və məlumatların göndərilməsi.

- Respublikada cinayətkarlığa qarşı mübarizənin nəticələri, cinayətlərin yeni forma və metodları, eləcə də qabaqcıl təcrübə barədə müfaviq hesabatların tərtibi və zəruri hallarda belə məlumatların İnterpolun Baş Katibliyinə təqdim edilməsi. Beynəlxalq polis əməkdaşlığı çərçivəsində əldə olunan operativ və digər məlumatlar bankının yaradılması.

- Transmilli cinayətkarlıqla mübarizə üzrə əməkdaşlıq sahəsindəki tələblər, şərtlər barədə respublikanın hüquq-mühafizə orqanlarının məlumatlandırılması və bu yönümdə işin təkmilləşdirilməsinə dair Baş Katibliyə təkliflər verilməsi.

- Polisin fəaliyyətinə, habelə transmilli cinayətlərlə mübarizəyə dair beynəlxalq hüquq normalarını əks etdirən sənədlərin, müqavilələrin Baş Katiblikdən sorğu edilməklə alınması.

- Cinayətkarlıqla mübarizə sahəsində beynəlxalq əməkdaşlığın problemlərinə dair xülasələrin, məruzələrin, İnterpola üzv olan ölkələrin kriminal xidmətlərinin məlumatları əsasında ümumiləşdirmiş təkliflərin hazırlanması.

Yeni Ukraynanın Vladimir Jirinovski barədə cinayət işini İnterpola təqdim etməsi hələ onun barəsində axtarış elan olunması demək deyil. İnterpol təqdim olunan cinayət işləri ilə bağlı axtarış elan etməzdən əvvəl bu işlərin siyasi xarakterli olub olmamasını, əsaslılığını yoxlayır. Əgər uyğunsuzluq olursa, axtarışdan imtina edilir".

**M.Hacıyev deyir ki, əgər İnterpol V.Jirinovski haqda axtarış versə, rusiyalı partiya sədri Azərbaycana gəlməkdən vaz keçməlidir:** "Azərbaycan İnterpola üzv dövlətlərdəndir. Əgər şəxsin barəsində bu təşkilatın xətti ilə axtarış olsa, onu ölkəmizdə saxlayıb barəsində axtarış elan etmiş ölkəyə təhvil verməlidirlər. Vladimir Jirinovskiyə Azərbaycana gələcəyi təqdirdə, xoşagəlməz situasiyanın yaranacağını və bunun Azərbaycan-Rusiya, Azərbaycan-Ukrayna münasibətlərinə təsirsiz ötüşməyəcəyini diplomatik kanallarla çatdırmaq lazımdır. Axtarış işi olmayacaqsa, onun Azərbaycan gəlişində heç bir problem də yoxdur".

Xatırladaq ki, Azərbaycan 9 fevral 1993-cü ildən İnterpolun üzvüdür, təşkilatın Milli Mərkəzi Bürosu da həmin tarixdən fəaliyyətdədir.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 233 (5942) 18 sentyabr 2014

# Bakı qəbiristanlıqlarında dəbdəbə rəzaləti

## Yeri satılan sahibsiz qəbirlər, sağ ikən özünə başdaşı hazırlatdıranlar və daha nələr...; qadağaların növbəti potensial ünvanından əməkdaşımızın qeydləri

**Dəbdəbəli yas mərasimlərinə son qoyulması ilə bağlı təklif və fikirlər hələ də ciddi müzakirə mövzusudur. Qəbiristanlıqlarda ucaldılan bahalı başdaşları da cəmiyyəti, eləcə də dövləti, ziyalıları, ilahiyyatçıları narahat eləməkdədir.**

Bu yaxınlarda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı mətbuata açıqlamasında bahalı qəbir daşları ilə bağlı məsələnin qanunla tənzimlənməsinə ehtiyac olduğunu bildirmişdi. Qurbanlı demişdi ki, bütün sivil ölkələrdə qəbiristanlıqla bağlı məsələlər qanunla tənzimlənir: "Lakin heç bir qanunun geriyə tətbiqi olmadığından, söhbət növbəti mərhələlərdən gedə bilər. Azərbaycanda qəbir daşları ilə bağlı nizam-intizam yaradılmasına ehtiyac var. Bu, təkcə Dini Komitənin işi deyil, bütövlükdə ictimaiyyətin, medianın geniş müzakirə mövzusudur".

Bahalı, hündür, dəbdəbəli başdaşlarına məhdudiyyətlərin qoyulması ilə bağlı söhbətlərin müzakirə olunduğu vaxtda paytaxtda yerləşən bir neçə qəbiristanlığa baş çəkib dəbdəbəli başdaşlarının olub-olmadığı ilə maraqlandıq. İlk baş çəkdiyimiz yer Yasamal qəbiristanlığı ilə Fəxri Xiyabanın arxa tərəfindəki "Varlılar qəbiristanlığı" oldu. Bu qəbiristanlıqda məzarların başı üzərində uca heykəllər, abidələr, qara və ağ mərmər, qranit daşlar üzərində mərhumun özəl anlarını əks etdirən fotolar və şeirlər əksini tapmışdı. Qəbiristanlıqda olduğumuz zaman bir molla bizə yaxınlaşıb onun xidmətinə ehtiyac olub-olmadığını soruşdu. Biz də jurnalist olduğumuzu deyib, onunla söhbətləşmək qərarına gəldik.

**Əvvəlcə "siz Allah məni çəkməyin, Quran oxuyub 1-2 manat pul alıram, ona da bais olmayın" desə də, mollanı bizimlə söhbətə razı sala bildik. Molladan bu cür bahalı başdaşlarının və heykəllərin qoyulmasının dində günah olub-olmadığını soruşduq. Molla indi günah və savaba kiminsə baxmadığını dedi:** "Bura adından da göründüyü kimi varlılar qəbiristanlığıdır. Elə adamlar olub ki, deyir mənim əzizimin qəbri digərlərindən seçilməlidir. Ona görə də ən bahalı mərmərlər düzdürür. Amma nəyə lazım, insana sağlığında dəyər vermək lazımdır. İslamda qəbir yerlərinin satılması haram buyurulur. Bu məsələ ictimaiyyətdə dəfələrlə dartışma mövzusu olub, aidiyyəti qurumlara məlumatlar verilib, qəbir yerlərini satanlar tənqid edilib. Ancaq yenə də satılır. İndi də qəbir daşlarının sadə olmasını istəyirlər. İstəməklə deyil, əməl etmək lazımdır".

Molla ilə sağollaşıb Yasamal qəbiristanlığına yollanırıq. Badamdar dairəsindən Şərifzadə küçəsinə qəbiristanlığın içərisi ilə gedən bu yolda sağ tərəfdə əsasən rus və yəhudi məzarları, sol tərəfdə isə azərbaycanlıların qəbirləri var. Rus və yəhudi qəbirlərinin əksəriyyəti baxımsız vəziyyətdə idi. Qəbiristanlıqda sahibsiz məzarların sayı isə yüzlərə, hətta minlərlədir. Buradakı mollalar sahibsiz qəbirlərin yerinin satılması halları olduğunu da dedilər. Qəbiristanlığın azərbaycanlılar uyuyan yerində isə sadə başdaşları da vardı, təmtəraqlı olanları da. Hətta bir ticarətçi öz oğlunun qəbri üçün sərdabə ucaltmışdı. Yanındakı bir yeri də boş saxlamışdı. Qəbiristanlıqdakı molla bildirdi ki, əksəriyyət sağ olmalarına baxmayaraq özləri üçün qəbir yeri alıb, başdaşı qoydurub. Doğum tarixlərini yazdırıb ölüm tarixini boş saxlayırlar. Müşahidəmiz zamanı qara mərmərlər üzərində bir neçə şeirə də rast gəldik.

**Başdaşlarının neçə manata ərsəyə gəldiyini öyrənmək üçün qəbir daşları istehsal edən sexlərdən birinə üz tutduq. Öyrəndik ki, ölçüsündən və sifariş verənin istəyindən asılı olaraq qiymətlər dəyişir. Belə ki, adi qəbir daşları 200 manatdan yuxarı, qara mərmərdən hazırlanan baş daşları isə 800 manatdan başlayaraq 10 min manatadək ola bilir. Qəbir daşı düzəldən Cəbrayıl Allahverdiyev deyir ki, başdaşının hansı mərmərdən hazırlanması da qiymətə təsir edir:** "Qara mərmərdən hazırlanan sadə bir qəbir daşını zəhmət haqqı da daxil olmaqla 800-900 manata düzəldirik. Tək sinə daşı qoymaq istəyənlər isə nadir hallarda sexlərə müraciət edir. Daha çox qara mərmərdən başdaşı sifariş edirlər. O daha gözə gəlimli görünür. Mərmərin üzərinə şeir yazılması pulu bir az bahalaşdırır. Həmçinin mərhumun qara mərmərə şəklinin qismən rəngli və rəngsiz vurulması da baş daşının qiymətinə təsir edir. Bəzi insanlar qiymətlərə görə sağlığında özünə qəbir daşı sifariş verir. Səbəb kimi övladlarının gələcəkdə əziyyət çəkməməsini göstərirlər. İnsanlarımız nədənsə son zamanlar çox bədbinləşib. Hətta başdaşlarını aparıb aldıqları qəbir yerində quraşdıranlar, özlərinə şeir yazdıranlar da olub".

**C.Allahverdiyevdən bahalı qəbir daşlarının ləğv edilməsi ilə bağlı söhbətlərdən xəbərinin olub-olmadığını soruşduq. O, gəzən söhbətlərdən xəbərdar olduğunu bildirdi:** "Eşitmişəm ki, yaslardan sonra qəbir daşlarına keçəcəklər. Ancaq indi əlimdə 4-5 dənə bahalı başdaşı sifarişi var. Yəni insanlar bundan xəbərdar olsalar da, əzizlərinin baş daşlarının adlarına layiq olmasını istəyirlər".

❑ **Günel MANAFLI**

**Fotolar müəllifindir**











**Elan**

**Hacıqabulda İpək yolunun yanında 47 hektar torpaq sahəsi, çobanlar üçün 2 ədəd 2 otaqlı , 1ədəd 4 otaqlı qonaq evi, 3 hektar meyvə bagı, 200 ədəd mal-qara saxlamaq üçün daşdan tikilmiş tövlələr, 10 min ot bagı üçün yem anbarı, 2 ədəd balıq gölü, daimi işıgı, suyu. Qaz çəkdirmək üçün sənədlər ( texniki şərt), 0,5 hektar torpaq sahəsi olan restoran, 30 metr üzüm talvarı olan ferma satılır. Ətrafında əlavə 100-150 hektar torpaq sahəsi var.**

**Əlaqə nömrəsi : (050)-214-40-53**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

--------------------------------------------------------------------------

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

--------------------------------------------------------------------------

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**




**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34

*Əyləncəli, sürətli, asan!*



Speak English

*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

- ✓ İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
- ✓ Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
- ✓ Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
- ✓ Əla tələffüz və güvənlə danışmaq
- ✓ Real ingiliscə söhbətlər

BONUS English EXPLOSION dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*



# "İldə bir kilo bal yeyən insan pis xəstəliklərdən uzaq olar"

## 30 ildir arıçılıqla məşğul olan İsmayıllı sakini Rasim Əhmədov bu işin sirlərini açdı: "Balın təmiz olmadığını bilmək üçün onu qaşığa töküb yandırırsan və..."

**Rasim Əhmədov 30 ildir arıçılıqla məşğuldur. İsmayıllıdan qayıdarkən yol üstündə rastımıza çıxan arıçı Rasim bizimlə söhbətində bu sənətin sirlərindən danışdı. Rasim kişinin sözlərinə görə, 40 yeşik arısı var: "Hər yeşikdə 80 min arı olur. Balı hər adam tanımır. Arıçılıq canlı işdir. Mən onlarla danışa bilirəm, dil tapıram.**

Çünki peşəmdir. Onların yaz aylarında qarın ağrısı başlayır. Marağı olanlar üçün deyim ki, aprel və may ayının gülləri üstündə şeh olur. Arının ayağı şehə dəyəndə ona soyuq dəyir. Elə bilirsiniz ki, tək insana soyuq dəyir? Arıları da soyuqdan qorumaq lazımdır".

**Arıçı deyir ki, qarın ağrısı olan arılara bir-bir dərman tökmək olmur:** "Ona görə dərmana şərbət qatıb tökürük. Sonra payızda gənə olur. Malda olan kimi arıda da gənə olur. Onun da dərmanı var. Yəni bu işin çox çətinliyi var.

İndi payız mövsümü yaxınlaşır. Payız da arıçılıq dövrüdür. Mən oktyabra qədər burda olacağam. Bütün həyatımı bu sənətə həsr eləmişəm. Özüm də qələm adamlarına yaxın biriyəm. Şair dostlarım var".

**R.Əhmədov danışır ki, kababçını həmişə kababın iyi tutur:** "Ancaq arıçını bal tutmur. Bizdə belə problem olmur. Balsız mənim həyatım yoxdur. Ancaq onu çox yemək də olmaz. Çünki təzyiqi qaldırır. Bu peşənin ən müqəddəs və vacib şərti odur ki, bala haram qatmaq olmaz, günahdır. Kim bilmirsə bəkməz qatır.

Görün necə müqəddəs nemətdirsə, bal qanda olan mikrobları öldürür. Bir gün türkiyəli qonaq var idi. İlk dəfə ondan eşidirdim ki, il ərzində bir kilo bal yeyən insan pis xəstəliklərdən uzaq olar. Heç qrip ona yaxın gələ bilməz".

**Rasim kişi təmiz balı tanımağın sirrini də bizə öyrətdi. Onun dediyinə görə, çay qaşığına balı töküb altını yandırırsan, əgər bal yanmayıb, qaynadısa, deməli, təmizdir:** "Ancaq bala şəkər qatıldığını bilmək üçün qaşığı yandırırsan və balı alov götürür yanır. Elə bil ki, kağız parçasını yandırırsan. Bunu



hər adam bilmir. O da təbiidir. Bu, mənim işimdir. Bir də balı keyfiyyətindən, dadından tanımaq olur. Bal yeyən adam ağzının dadını bilir ki, bu necə maldır. İndiki dövrdə təmiz bal tapmaq çətindir. Ona görə insanlarda inamsızlıq var. Ancaq mən apreldə bu yerə gəlirəm, bir də evə oktyabrda gedirəm. Burada balaca daxma düzəltmişəm, yeməyim, içməyim, hamısı burdadır".

**Rasim kişi deyir ki, nadir hallarda bu aylar ərzində evə baş çəkir:** "Xeyir işlərə oğlum gedir, yas məclislərinə özüm. Başqa yerlərdə də arı yeşiklərim var. Ailəmi yalnız bu işlə dolandırıram. Elə gün olur ki, qazanc əldə etmirəm. Ruzi qismətdir".

**Həmsöhbətimiz Şəki-Zaqatala bölgəsində balın şabalıddan çəkildiyini də dedi. Müsahibimiz arıların kimləri daha çox sancdığını da açıqladı:** "Arılar pis niyyətli adamlar yaxşı tanıyır. Siz xalq üçün işləyirsiz, sözün yaxşısını deyən adamlarsız, arı jurnalistləri heç vaxt sancmaz".

**R.Əhmədov bildirir ki, arıçılıqla təbabəti bir-birinə yaxınlaşdıran amillər var:** "Arı məhsullarının, o cümlədən arı zəhəri, arı südü müxtəlif xəstəliklərin müalicəsindəki uğurlu nəticələridir.

Dünyada 20 mindən artıq arı növü var. İnanın ki, Antraktidadan başqa dünyanın istənilən yerində arıya rast gəlinir. Arılar həm yaxşı şirə olan yeri hiss edirlər, həm də onlara qulluq edən insanı tanıyırlar. Arı ailəsində bütün arıların işi var. Tək istisna erkək arılardı. Erkək arılar nə pətəyin qorunmasında, nə təmizliyində, nə də qida tədarükündə iştirak edərlər. Onların pətəkdəki yeganə funksiyaları ana arını mayalandırmaqdır".

**Arıçı onu da deyir ki, bir pətəyin arıları digər pətəyin arılarını ora buraxmırlar:** "Hər bir pətəyin qabağında keşikçi arılar olur. Pətəyin içərisində müəyyən qruplar olur ki, digər arıların çöldən gətirdikləri xortumundakı şirəni, bəzən ayaqlarındakı çiçək yarpaqlarını, bəzi vaxtlarda isə gətirdikləri suyu yerbəyer etməklə məşğul olurlar. Su arıların balalamasında vacib rol oynayır. Əgər xəstə arı olarsa, o artıq işə yaramadığı üçün qanadlarını yonub pətəkdən bayıra atırlar".

Qeyd edək ki, Azərbaycanda arıçılıq qədim tarixə malikdir. Hələ eramızdan əvvəl IX-VIII əsrlərdə Zaqafqaziyada arıçılıqla məşğul olublar. X-XII əsrlərdə Azərbaycanda arıçılıq daha da inkişaf edib.

❑ **"Yeni Müsavat"ın Reportyor Qrupu İSMAYILLI**



# Həcc ziyarəti sentyabrın 23-dən başlayacaq

## Builki qiymətlər ötən ilkilərlə eyniyyət təşkil edir...

**Azərbaycan zəvvarlarının Həcc ziyarəti sentyabrın 23-dən başlayacaq. İlk gün bir reys, növbəti günlər isə hər gün 2 və ya 3 reys olmaqla, uçuşlar sentyabrın 28-dək davam edəcək. Sentyabrın 28-i Azərbaycandan bu il Həcc ziyarətinə son səfər günü kimi nəzərdə tutulur. Ziyarətdən qayıdış isə Qurban bayramından 5 gün sonraya, təxminən oktyabrın 10-dan etibarən nəzərdə tutulur.**

Qeyd edək ki, Azərbaycanda Həcc ziyarətinə getmək istəyən zəvvarların sənəd qəbulu fevralın 13-dən etibarən başlayıb. Ziyarət bu il də iki variantda təşkil olunur. Nisbətən şəraiti zəif və gündə iki dəfə yemək verilən hotellərdə qalan zəvvarlar üçün ümumi ziyarət xərci 3 min 250 manat, daha yaxşı şəraitli və yeməkləri daha çeşidli olan hotellərdə qalmaq istəyən zəvvarlar üçün ümumi xərc 4 min 100 manatdır. Həcc ziyarətinə səfərlər yalnız təyyarə ilə baş tutacaq.

Suriyada baş verən hadisələrlə əlaqədar bu il də zəvvarlar avtobuslarla səfər edə bilməyəcəklər. Azərbaycanlı zəvvarların uçuşlarını ASAS *(Advance Spesial Aviation Service)* aviaşirkəti həyata keçirəcək.

Onu da qeyd edək ki, Azərbaycandan bu il Həcc ziyarətinə gedəcək zəvvarlara ziyarət zamanı qeyri-qanuni əməllərə yol verməmələri barədə xəbərdarlıq edilib. Xəbərdarlığı pozanlar Səudiyyə Ərəbistanının qanunları ilə cəzalandırılacaq. Cəzalar arasında qeyri-qanuni əməllərin ağırlığından asılı olaraq, edam da nəzərdə tutulur.

Qafqaz Müsəlmanları İdarəsindən (QMİ) APA-ya verilən məlumata görə, xəbərdarlıq zəvvarlara paylanacaq viza sənədləri arasında olacaq. Gələcək hacılar xəbərdarlıqla tanış olduqlarına dair imza da atacaqlar. Viza şərtləri arasında olan xəbərdarlıq ondan ibarətdir ki, ziyarət zamanı zəvvarlar spirtli içki qəbul etməməli, zinaya yol verməməli, hansısa siyasi və dini təriqətə qoşulmamalı, ölümə səbəb olan və digər ziyanverici hərəkətlərdən, eyni zamanda hər hansı siyasi aksiyalardan, toplumlardan uzaq durmalıdırlar. Əks halda, Səudiyyə Ərəbistanının qanunvericiliyinə uyğun cəzalanacaqlar. Edam cəzası dini təriqətlərarası qarşıdurma yaradaraq ölümə təhrik etmə, zina və spirtli içki qəbul etməyə görə nəzərdə tutulur. Hər il qısa formada edilən xəbərdarlıq bu il daha geniş və izahatlı şəkildə zəvvarların diqqətinə çatdırılır.

Sonda xatırladaq ki, bu il də təklif edilən qiymətlər ötənilki qiymətlərlə eynidir.

❑ **Günel MANAFLI**

# Azərbaycan ordusu milli yeməklərə keçir



**Müdafiə Nazirliyinin sentyabrın 17-də yaydığı rəsmi məlumatda bildirilir ki, qablaşdırılmış hazır milli yeməklərin və yenilənmiş quru ərzaq dəstinin ilk nümunələri keçirilən irimiqyaslı təlimin şəxsi heyətinə verilib: "Hərbi hissələrdə şəxsi heyətin qidalanmasının keyfiyyətinin yaxşılaşdırılması və bişirilən yeməklərin çeşidinin artırılması məqsədilə milli yeməklərin hazırlanmasına üstünlük verilir.**

Hissələrin yeməkxanalarında aşpazların, yeməkxana və mətbəx işçilərinin, qabyuyanların mülki işçilərlə əvəz olunması hazırlanan yeməklərin və görülən işlərin keyfiyyətinə öz müsbət təsirini göstərib. Hərbi hissələr yeməkxana-mətbəx avadanlıqları, o cümlədən ətçəkən, tərəvəz-doğrayan və kartoftəmizləyən maşınlar, elektrik tavaları, elektrik və qaz plitələri ilə təmin edilib və hazırda yeməkxanalarda keyfiyyətli milli yeməklərin bişirilməsinə diqqət daha da artırılıb.

Lakin ərazi relyefinə görə daşıma yolları çətin, təhlükəli, əlverişsiz, yüksək dağ şəraitlərində yerləşən və uzunmüddətli ərzaq tədarükü edilən hərbi hissələrin şəxsi heyəti üçün stasionar şəraitdəki kimi milli yeməklərin hazırlanmasında bəzi çətinliklər yaranır. Bu səbəbdən də qeyd edilən şəraitdə xidmət edən şəxsi heyətin konservləşdirilmiş milli yeməklərlə təmin edilməsi planlaşdırılaraq həyata keçirilir.

Artıq ilk olaraq bir nəfər üçün 1 porsiyası 500-550 qramlıq tərəvəzli, yarmalı və tərəvəzli-yarmalı ət və sous şorbaları və 360-380 qramlıq badımcan, bibər, pomidor, kələm və qarışıq dolmalar hazırlanıb. Bununla da qısa bir müddətdə qeyri-stasionar şəraitdə yerləşən şəxsi heyətin gücləndirilmiş kalorili hazır və keyfiyyətli milli yeməklərlə təmin edilməsi məsələsi öz həllini tapıb.

Bundan əlavə, ərazi relyefinə görə daşıma yolları çətin, təhlükəli, əlverişsiz, yüksək dağ şəraitlərində, həmçinin içməli su mənbəyi olmayan yerlərdə xidmət edən, eləcə də döyüş şəraitində hesab olunan hərbi hissələrdə döyüş növbətçiliyi aparan hərbi qulluqçuların fiziki sağlamlığının qorunması məqsədilə gün ərzində bir nəfər üçün yeməklərin hazırlanmasına 2,5 litr, içmək üçün yay mövsümündə 2 litr, qış mövsümündə isə 1 litr qablaşdırılmış su verilir.

Silahlı Qüvvələrin hərbi qulluqçularının səhra şəraitində quru ərzaq payı dəsti çeşidinin və qida rasionunun enerji dəyərinin artırılması məqsədilə Nazirlər Kabinetinin müvafiq qərarı və müdafiə nazirinin əmri ilə ərzaq payı normalarına 150 qram ciyər paşteti və 100 qram qatılaşdırılmış şəkərli süd əlavə edilib.

Bununla da quru ərzaq payının ümumi enerji dəyəri 3236 kilokaloridən 4000 kilokaloriyədək artırılıb".

YENİ MÜSAVAT

Son səhifə

N 233 (5942) 18 sentyabr 2014

# Millət vəkilini zibilə atdılar



Ukraynanın keçmiş prezidenti Yanıkoviçin tərəfdarlarından biri kimi tanınan millət vəkili zibil qabına atılıb. Ukraynada baş verən hadisə hər kəsi heyrətə salıb. Yanıkoviçin partiyasının üzvü olan və Rusiya tərəfdarı kimi tanınan deputat Vitali Zuravski bir qrup aksiyaçı tərəfindən tutularaq zibil qabına atılıb. Aksiyaçılar millət vəkilinin zibil qabından çıxmasına icazə verməyiblər. Onlar deputatı köhnə hökumət dövründə narazılıqlara səbəb olan qanunların qəbul edilməsində günahlandırır və qan tökülməsinə səbəb olduğunu deyirlər.



## Məhkuma ölüm haqqı verildi

30 ildir Belçikadakı həbsxanaların birində yatan məhkuma ölməsi üçün icazə verilib. Beləki, belçikalı məhkum dərin psixoloji travma aldığını və özünü yaxşı hiss etmədiyini deyərək xəstəxanaya müraciət edib. 52 yaşlı kişi ölmək istədiyini bildirib. Uzun müddət davam edən məhkəmələr müddətində adı açıqlanmayan məhkum ictimaiyyət üçün heç bir faydası olmayacağını, vicdan əzabı çəkdiyi üçün ölmək istədiyini deyib. Məhkumun vəkili onun öldürülməsi üçün lazım olan bütün şərtləri qəbul etdiyini və həyatla vidalaşmaq üçün əlindən gələn hər şeyi etdiyini deyib. Həbsxana şərtlərinin ağır olduğunu deyən məhkum psixoloji baxımdan travmalar aldığını da dilə gətirib.

Məlumat üçün bildirək ki, Belçikada həkimlər məhkumları öldürmədən əvvəl onların iki gün yaxınları ilə qalmasına icazə verirlər. Ötən il Belçikada 1807 nəfər öz istəkləri ilə öldürülüb. Bu rəqəm 2012-ci illə müqayisədə 27 faiz daha çoxdur. İnsanların öz istəkləri ilə öldürülməsi 2002-ci ildən etibarən qanuni hal alıb.

# Ağ pendirin faydaları

Saçları gücləndirir;
Yaddaş zəifliyi və diqqətsizliyi normaya salır;
Görmə zəifliyini və katarakt olma ehtimalını azaldır;
Vücudun protein ehtiyacını qarşılamada ən güclü qidalardan biridir;
Xolestorol səviyyəsi aşağı olub yağ turşuları olmadığı üçün sağlam qidadır;
Aminoasit qaynağı olduğu üçün zəka inkişafında böyük rol oynayır;
Bağırsaq mikroflorasını tarazlayaraq zərərli mikroorqanizmləri məhv edə bilir;
İmmunitet sistemini gücləndirir;
Vücuda təbii enerji verir;
A, B1, B2, B6, B12, folik turşusu ilə bədənə fayda verir;
Dişləri qoruyur;
Qadınlarda sümük əriməsi probleminin qarşısını alır;
Uşaqların boy uzanmasını gücləndirir;
Həzm sistemini asanlaşdırır;
Pendir süd məhsulları yeməyən insanların üstünlük verdiyi qidadır;
Yağın tərkibindən asılı olaraq, 100 qram tamamilə yağlı pendirdə 260 kalori, az yağlı pendirdə isə 179 kalori var.





## 45 milyon dollara 20 lüks maşın alacaq

Honkonqlu milyarder 45 milyon dollara 30 superlüks "Rolls-Royce Phantom" sifariş edib. Onların arasında çox bahalı və unikal 2 model də var. Sözügedən modellərin interyerində çox bahalı materiallardan, qızıldan və almaz qaşlardan da istifadə olunub. Milli.az "AsiaOne"a istinadən bildirir ki, Honkonqda yaşayan milyarder iş adamı, 55 yaşlı Stiven Hunun dediyinə görə, bu maşınları Makao şəhərindəki 6 ulduzlu "Louis XIII" hoteli üçün alıb. "Rolls-Royce Phantom"lar hotelin VİP müştərilərinə xidmət edəcək. Hotel 2016-cı ildə istifadəyə veriləcək. "Rolls-Royce"un baş icraçı direktoru Torsten Müller-Oitvos anlaşmanı təsdiqləyib. Sifariş edilmiş 30 avtomobilin hamısı "Rolls-Royce"un Qudvuddakı zavodunda eksklüziv olaraq yığılacaq.




QOÇ - Çox düşərli gündür. Boş durmaqdansa ən xırda şansdan belə istifadə edin. Tərəfdaşlıq zəminində, perspektivli sövdələşmələrdə uğurlarınız artacaq. Amma özünüzü təxribatlardan qorumalısınız.

BUĞA - Həddindən ziyadə uğurlu gündür. Ürəyinizə yaxın adamlarla rastlaşmağınız, həmçinin sevindirici təkliflər almağınız uzun müddət yadınızda qalacaq. Səfərə çıxsanız, ehtiyatlı olun.

ƏKİZLƏR - Bütün göstəricilər gün boyu ovqatınızın xoş olacağını proqnozlaşdırır. Xüsusilə saat 14-16 aralığında xoş bir təsadüflə rastlaşacaqsınız. Ailə üzvlərinizlə mehriban davranın.

XƏRÇƏNG - Yalnız maliyyə məsələlərində uğurlarınız gözlənilir. Odur ki, əsas gücünüzü bu istiqamətə yönəldin. Kiməsə borc vermək və ya almaq fikrindən uzaq olun. Axşam başqa ünvana getməyin.

ŞİR - Saat 15-ə qədər qarşılıqlı münasibətlərdə gərginlik gözlənildiyindən tədbirli olun. Bunu bacarsanız, ulduzlar sonrakı müddətdə sizə xüsusi zövq verəcək. Təzə xəbər də eşidəcəksiniz.

QIZ - Səhhətlə bağlı nasazlığınız olsa da, bu, ovqatınızı pozmayacaq. Əksinə, gün ərzində iştirakçısı olduğunuz proseslər sizi xeyli fərəhləndirəcək. Ətrafınıza yaxşı insanlar toplaşacaq.

TƏRƏZİ - O qədər də uğurlu təqvim deyil. Bir tərəfdən cəhdlərinizin boşa çıxması, digər tərəfdənsə ətrafınızda olanların naxələfliyi ovqatınızı poza bilər. Müəyyən qədər təcrid olunub öz aləminizə qapılın.

ƏQRƏB - Fəaliyyət durumunuzda müəyyən problemlər gözlənilir, münasibətlərə fikir verin. Bundan kənarda işləriniz uğurlu olmalıdır. Hətta günün ikinci yarısında qazanmaq ehtimalınız da var.

OXATAN - Günün ümumi ovqatını nəzərə alıb əsas vaxtınızı istirahətə yönəldin. Ağır fiziki və zehni işlərə girişməyin. Saat 16-dan sonra qonaq getməyə, gəzintilərə aludə olmağa dəyər.

OĞLAQ - Ulduzların düzümü rahatlığı daha çox səfər və qonaqlıqlarda tapa biləcəyinizdən xəbər verir. Çünki bu gün sizə çoxlu adamlarla təmasda olmaq vacibdir. Tənhalığa qurşanmayın.

SUTÖKƏN - Bəxtinizdə ilahi bir təqvim durub. Bu səbəbdən də hansısa müqəddəs yeri ziyarət etməklə, kimsəsizləri sevindirməklə böyük savab qazanmış olarsınız. Axşam maraqlı insanlarla görüşünüz mümkündür.

BALIQLAR - Maliyyə vəziyyətiniz imkan versə, mütləq səfərə çıxın. Çünki xeyli müddət belə fürsət ələ düşməyəcək. Göy qübbəsi kənar təsirlərə aludə olmamağı, riskdən qorxmamağı tövsiyə edir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Timsah hovuzunda intihar



Tailandın paytaxtından iki saat uzaqlıqdakı Samutprakrarn adlı parkın ziyarətçilərə açıldığı saatda 65 yaşlı bir qadın timsahlarla dolu parka tullanaraq intihar edib. Tailand polisinin verdiyi məlumata görə, qadının bu addımı atmasına stress və depressiya səbəb olub. Tailanda zoopark kimi istifadə edilən bağlar xüsusən də turistlərin diqqət mərkəzindədir. Turistlər bu zooparklarda heyvanları əlləri ilə bəsləməkdən xüsusi zövq aldıqlarını deyirlər.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zabil MÜQABİLOĞLU

Lisenziya N: B 114
SAYI: 5.600